RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 50 (9217) 5 MART 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Güc simvolu



## İlham Əliyev dünyada ən yüksək döyüş qabiliyyətinə malik ordulardan birini yaradıb

**Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan Vətən müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır.**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər isə Silahlı Qüvvələrin gücünə güc qatır. Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən ordu quruculuğu nəticəsində bu gün Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verən ordu kimi formalaşıb.

Bu, bir həqiqətdir ki, İkinci Qarabağ müharibəsində əldə edilən zəfər illərlə keçirilən təlimlərin, alınan silah-sursatların, texnikalardan düzgün yararlanmanın və ən başlıcası, vahid komandanlıq sisteminin idarə edilməsinin uğurlu nəticəsidir.

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində mühüm işlər görülür. İşğaldan azad olunan bölgələrdə xüsusi təyinatlı hərbi hissələrin yaradılması, müasir hərbi texnika və silah-sursatla təchizat bunun əyani təzahürüdür.

→ 2

## Heydər Əliyev İli - 2023

## Ulu Öndər bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrətdi



Ümummilli Liderin ən möhtəşəm abidəsi hər bir Gəncə sakininin ürəyində yurd salıb. Prezident İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan etməsi barədə imzaladığı sərəncamını Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları kimi, qədim Gəncənin sakinləri də böyük sevinclə qarşıladılar. Xalqımızı dünyada təklənmək təhlükəsindən xilas edən müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ilinə təsadüf edən 2023-cü ilin "Heydər Əliyev İli" kimi geniş qeyd edilməsi də Azərbaycan xalqının milli tariximizin ən qüdrətli simasına olan sonsuz məhəbbətindən irəli gəlir.

→ 5

## YAP-da islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoyub



Xüsusilə qeyd etmək lazımdır ki, bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi inkişafa nail olub, regionda və dünyada mövqelərini daha da möhkəmləndirib. Vətən müharibəsində qazanılan hərbi qələbə bu gün dinc quruculuq meydanında davam etdirilir, Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar, əlbəttə ki, həm də YAP-ın cəmiyyətimizdəki mövqelərini daha da gücləndirir. Bu baxımdan YAP-ın fəaliyyəti ilə bağlı olan hər bir hadisənin diqqət və maraqla qarşılanması da partiyamızın siyasi arenadakı güclü mövqeyinin və xalqın yüksək etimadının göstəricisidir. YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayı bütün bunları təsdiq edir.

Ötən iki il göstərir ki, YAP-ın VII qurultayı və qəbul olunan qərarlar partiya fəaliyyətində mühüm keyfiyyət dəyişikliklərinə səbəb olub. Bütövlükdə sonuncu qurultaydan ötən dövr göstərir ki, fəaliyyətini dövrün nəbzini tutmaqla uğurla həyata keçirən YAP Azərbaycanın ən böyük siyasi partiyası və siyasi istinad ünvanı kimi qarşısında dayanan bütün vəzifələri layiqincə və qətiyyətlə yerinə yetirir.

→ 5

## Xarici jurnalistlər Gəncədə erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsini anıblar



→ 7

## Xarici media nümayəndələri Füzulidə erməni barbarlığının şahidi olublar



→ 7

## Qoşulmama Hərəkatının fəaliyyətində ən uğurlu dövr



Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Zirvə görüşündə dərinməzmunlu çıxış edərək bir çox məsələlərlə bağlı mövqeyini ifadə etdi. Dövlət başçısının dediyi kimi, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb. Dövlət başçımız çıxışı zamanı səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edib, çünki bu problem də qlobal xarakter daşıyır. İnanırıq ki, ölkə rəhbərinin əvvəlki təklifləri dəstəkləndiyi kimi, bu təklifi də Qoşulmama Hərəkatının üzvləri tərəfindən dəstəklənəcək.

→ 6

## *Azərbaycanlı həkim:*

## "Kahramanmaraşda yerli sakinlər bizi çox böyük coşqu ilə qarşılayırdılar..."

"Təbii fəlakətdən şoka düşən ailə xilas olmaq istəyərkən 18 yaşında bir qız avtomobil qəzasına düşmüş, üz nahiyəsi partlamışdı. Bizimlə gedən həkimlər onun üzündə uğurlu cərrahiyyə əməliyyatı apardılar və səfərimizin son günlərində qızın üzünə qoyulan tikişlər söküldü. Xanım həkimlərdən son dərəcə razılıq və minnətdarlıq hissi ilə ayrıldı. Bizə ən çox xoş gələn türk qardaşlarımızın, əhalinin Azərbaycandan olanlara böyük ümidlə yanaşması idi. Azərbaycan bayrağı görəndə çox böyük qürur hissi ilə bizə yaxınlaşır, talelərindən, düçar olduqları fəlakətdən danışır və dərdlərini bölüşürdülər. Kahramanmaraşda demək olar ki, hər addımda bunu hiss edirdik və əlbəttə, bu, bizi də qürurlandırırdı. Türkiyənin televiziya kanalları, ayrı-ayrı jurnalistləri açdığımız hospitala gələrək fəaliyyətimiz haqqında süjetlər hazırladılar".




→ 8

## Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi torpaqlarına qayıtmaları təmin edilməlidir

"Gün gələcək Qərbi azərbaycanlılar tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar" deməsi bu inamı qat-qat artırıb. Bunu Sosial Tədqiqatlar Mərkəzinin ölkəmizdə yaşı 18-24 arasında olanlar arasında keçirdiyi sorğudan da görmək olar. Sorğunun nəticələrinə görə, yaşı 18-24 arasında olanların 84 faizdən çoxu Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanır. İctimai rəy sorğusunda respondentlərə "Prezident Qərbi Azərbaycana (İrəvan, Zəngəzur və Göyçə mahalına) qayıdışla bağlı yeni hədəfləri elan etdi. Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanırsınız?" sualı ünvanlanıb. Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Ümumi nəticələr insanların 74.6 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inandıqlarını göstərib. Sorğu nəticəsini gender aspektinə görə təhlil etdikdə, kişilərin 79 faizi, qadınların isə 71 faizi qayıdışın baş tutacağına qəti şəkildə əmin olduqlarını söyləyiblər. Hər iki qrupun tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanması bu istiqamətdəki dinamikanın müsbət seyri baxımından əhəmiyyətlidir.

→ 8

## Su axdıqca təkcə durulmur

### İsrafçılıq bizi bu əvəzsiz nemətə həsrət qoya bilər

Son 30 ildə Azərbaycanda çayların suluğu azalır. Bu problem son 10 ildə özünü daha kəskin göstərir. 2020-ci ildə sudan səmərəli istifadənin tənzimlənməsi üçün yaradılan Su Komissiyası müəyyən işlər görsə də, problemin həll olunduğunu demək hələ tezdir. Bunun bir səbəbi də Azərbaycanda əhalinin çoxalması, sənayenin və aqrar sektorun inkişafı fonunda suya olan tələbatın artmasıdır. Biz hələ analoji vəziyyətlə az qala bütün dünya ölkələrinin qarşılaşdığını demirik. Dünya əhalisi 1800-cü ildə 1 milyard, cari ildə isə artıq 8,03 milyard olmuşdur. 2050-ci ildə bu rəqəmin 10 milyarda yaxınlaşacağı gözlənilir. Deməli, 1800-cü ildə insanların qidalanması və yaşaması üçün nə qədər su sərf edilmişsə, 2050-ci ildə həmin su məsrəfləri 10 dəfə artacaq.



Bütün bu boz proqnozlardan sonra sudan qənaətlə istifadə etmək çağırışından savayı əlimizdən heç nə gəlmir. Unutmayaq ki, su axdıqca (təbii ki, boş yerə) təkcə durulmur, həm də azalır.

→ 9

## "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, №12, maddə 1375) dəyişikliklər təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2023-cü il*

## Liviya Dövləti Prezident Şurası sədrinin Azərbaycana səfəri başa çatıb



**Liviya Dövləti Prezident Şurasının sədri Məhəmməd Yunis Əl-Mənfinin Azərbaycana səfəri martın 4-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Liviya Dövləti Prezident Şurasının sədrini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

## Hərbi vətənpərvərlik mövzusunda xəbər hazırlayan media nümayəndələri ilə görüş keçirilib



**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş nazirliyin Kommunikasiya Strategiyası çərçivəsində müxtəlif informasiya agentliklərinin hərbi vətənpərvərlik mövzusunda yazılar hazırlayan bir qrup media nümayəndəsi ilə görüş keçirilib.**




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Medianın İnkişafı Agentliyinin dəstəyi ilə keçirilən görüşdə jurnalistlərlə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi, hərbi mövzuda yazıların məzmunu və hərbi sirr hesab olunan informasiyanın yayılmasının qarşısının alınması ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin nümayəndələri tərəfindən jurnalistlərə hərbi və dövlət sirlərinin qorunması və digər mövzularda brifinqlər təqdim olunub.

Sonda media subyektləri ilə mövcud əməkdaşlığa və perspektivdə duran məsələlərə dair təkliflər dinlənilib.

# Güc simvolu



## İlham Əliyev dünyada ən yüksək döyüş qabiliyyətinə malik ordulardan birini yaradıb

*Əvvəli 1-ci səh.*











Ali Baş Komandanın göstərişinə əsasən müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycan Ordusunun Ermənistan ordusu üzərində qazandığı üstünlüyün qorunub saxlanmasını təmin edir.

Azərbaycan Ordusu qarşısında qoyulan yeni tapşırıqlara əsasən, modernləşmə, silahlanma və hazırlıq sahələrində ordunun ən yüksək göstəricilərə sahib olması üçün konkret planlar, tədbirlər hazırlanıb.

Ordu komandanlığı buna uyğun tapşırıqların təxirəsalınmaz icrasını reallaşdırır. Bununla yanaşı, hazırda bir çox hərbi hissələrimiz azad edilmiş ərazilərimizə dislokasiya edilir və ya həmin ərazilərdə yeni hərbi şəhərciklər salınır. Dislokasiya olunan bölmələrimizdə qoşun xidmətinin təşkili, şəxsi heyətin döyüş hazırlığının və döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, yeni hərbi infrastruktur obyektlərinin yaradılması, bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin yaxşılaşdırılması, döyüş planlarının dəqiqləşdirilməsi, maddi-texniki, tibbi təminatın davamlı yüksəldilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi gündəlik fəaliyyətin əsas prioritetlərindəndir.

Ümumiyyətlə, peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir və zamana bağlıdır. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Zamanın reallıqları təsdiq edir ki, modernləşmə ən vasib şərtlərdən biridir.

Hazırda Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığının daha da artırılması üçün müxtəlif tədbirlər planı əsasında hərbçilərimiz davamlı olaraq yerli və xarici ölkələrdə təşkil olunan təlimlərə qatılırlar.

Bu ilin döyüş hazırlığı planına müvafiq olaraq Azərbaycan Ordusunda hərbi qulluqçuların fərdi bacarıqlarının təkmilləşdirilməsi, eləcə də bölmələrin döyüş qabiliyyətinin daha da artırılması məqsədilə təlim və məşğələlər davam etdirilir.

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun minaatan və tank bölmələri ilə döyüş hazırlığı məşğələləri keçirilib. Minaatan bölmələrinin hazırlığında təlim atış çalışmaları üzrə tapşırıqları yerinə yetirən bölmələr təyin olunmuş hədəfləri minaatanlardan yüksək dəqiqliklə məhv ediblər. Qabaqcıl döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən məşğələlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Tank bölmələrinin döyüş hazırlığının yoxlanması üzrə ümumqoşun poliqonunda keçirilən tədbirlərdə döyüş maşınlarının idarə olunması, eləcə də şərti düşmən hədəflərinin məhv edilməsi üzrə yoxlama və nəzarət çalışmaları uğurla icra olunub. Burada məqsəd döyüş hazırlığının yüksək səviyyədə saxlanması və heyət üzvlərinin fərdi bacarıqlarının daha da təkmilləşdirilməsidir. Bununla yanaşı, tank heyətləri ilə sürücülük və atəş hazırlığı üzrə müxtəlif çalışmalar yerinə yetirilib. Tank heyətləri ərazidə təbii və süni maneələri dəf edərək döyüş maşınlarının idarə olunması, şərti düşmən hədəflərinin yerində və hərəkətdə məhv edilməsi üzrə tapşırıqları uğurla icra ediblər.

Plana əsasən piyadaların döyüş maşınları ekipajları ilə sürücülük və atəş hazırlığı üzrə praktiki çalışmalar yerinə yetirilib. Çalışmalarda əsas diqqət sürücü-mexaniklərin döyüş texnikasını idarəetmə qabiliyyətlərinin, eləcə də tuşlayıcı operatorların zirehli texnikadan hərəkətdə və dayanaraq atəşaçma bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə də təlim-məşq uçuşları həyata keçirilib. Helikopterlər bazalanma aerodromlarından müəyyənləşdirilmiş marşrutlar üzrə uçuşlar edib və ekipajların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşqlərdə qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.

Ordumuzun mühəndis bölmələri ilə də döyüş hazırlığı üzrə məşğələlər həyata keçirilib. Belə ki, xüsusi hazırlanmış mühəndis şəhərciyində Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin Mühəndis Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə keçirilən məşğələlər zamanı istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də digər tapşırıqları praktiki olaraq icra ediblər. Məşğələlərin keçirilməsində başlıca məqsəd mühəndis təminatını yerinə yetirən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vərdişlərinin, eləcə də silahlanmada olan müasir mühəndis texnikası və avadanlıqlarından səmərəli istifadəetmə üzrə bacarıqlarının təkmilləşdirilməsidir.

Bir sözlə, Müdafiə Nazirliyi rəhbərliyinin iştirakı ilə Azərbaycan Ordusunun bütün birlik və birləşmələrində müxtəlif səviyyəli irimiqyaslı əməliyyat-taktiki təlimlərin keçirilməsi həm ordumuzun qüdrətini nümayiş etdirir, həm də döyüş qabiliyyətini, gücünü artırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycan 120-dən çox ölkəyə məhsul ixrac edir

**Ötən il Azərbaycanın hüquqi və fiziki şəxsləri 185 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıblar. 120 ölkəyə məhsullar ixrac, 173 ölkədən idxal edilib.**

Dövlət Statistika Komitəsinin (DSK) verdiyi məlumata görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2022-ci ildə xarici ticarət dövriyyəsinin dəyəri 56 milyard 212,1 milyon, o cümlədən ixracın dəyəri 41 milyard 672,2 milyon, idxalın dəyəri isə 14 milyard 539,9 milyon dollar təşkil edib. Nəticədə 27 milyard 132,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

DSK-dən verilən məlumatda həmçinin bildirilir ki, 2021-ci illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 57,7, real ifadədə 6,4, o cümlədən ixrac 8,7, idxal 1,7 faiz artıb. Ötən il xarici ticarət dövriyyəsinin 90,1 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Hindistan, İsrail, Yunanıstan, Almaniya, İspaniya, Birləşmiş Krallıq, Çexiya, Xorvatiya, Gürcüstan, Portuqaliya, İndoneziya, Ukrayna, Qazaxıstan, Vyetnam, ABŞ, Türkmənistan, Rumıniya, İran, Tunis və İsveçrə ilə aparılmış ticarət əməliyyatlarının hesabına formalaşıb. İdxalda əsas partnyorlarımız Rusiya, Türkiyə, Çin, Almaniya, Türkmənistan,



Qazaxıstan, ABŞ, İran, İtaliya, Yaponiya, Koreya, Belarus, Ukrayna, Birləşmiş Krallıq, Fransa, Hindistan, Braziliya, Özbəkistan, Gürcüstan, Finlandiya və Polşa olub. Ölkəyə gətirilən mallarda maşınlar, mexanizmlər, elektrotexniki avadanlıq və aparatlar, nəqliyyat vasitələri, kimya sənayesi məhsulları, azqiymətli metallar və onlardan hazırlanan məmulatlar, mineral məhsullar, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatları, bitki mənşəli məhsullar, plastik kütlə və ondan hazırlanan məmulatlar, toxuculuq materialları və məmulatlarının dəyəri üstünlük təşkil edib.

Daxili istehsalın artması sayəsində bir çox məhsulların idxalı azalıb. Məsələn, ötən il mühüm məhsul növlərindən buğda, bitki yağları, xam şəkər, təzə meyvə, kərə yağı, digər süd yağları və pastaları, unlu qənnadı məmulatları, çay, quş əti və onun əlavə məhsulları, dərman vasitələri, polad prokatı, sintetik yuyucu vasitələr, mebellər, polietilen, məişət kondisionerləri, qara metallardan çubuqlar, avtobuslar, polipropilen, sement, şokolad və şokolad məhsulları, həmçinin kartof, mal əti, təzə tərəvəz, siqaretlər, minik avtomobilləri, qara metallardan borular, hesablama maşınları, blok və qurğuları, yük avtomobilləri, rezin şinlər, mineral gübrələr, paltaryuyan maşınlar, qara metallardan künclüklər, məişət soyuducuları 2021-ci illə müqayisədə az idxal edilib.

İxracda isə İtaliya, Türkiyə, İsrail, Hindistan, Yunanıstan, İspaniya, Rusiya, Xorvatiya, Çexiya, Birləşmiş Krallıq, Portuqaliya, Gürcüstan, İndoneziya, Almaniya, Tunis, Vyetnam, Rumıniya, İsveçrə, İrlandiya, Ukrayna və Bolqarıstan əsas ticarət partnyorlarımız olub. İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsulları, meyvə və tərəvəz, kimya sənayesi məhsulları, plastik kütlə, alüminium, qara metallar və onlardan hazırlanan məmulatlar, pambıq lifi və ipliyi, şəkər, alkoqollu və alkoqolsuz içkilər, bitki yağları üstünlük təşkil edib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan Respublikası Prezidentinin "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 9 aprel tarixli 606 nömrəli, "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 24 aprel tarixli 613 nömrəli, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 9 iyul tarixli 680 nömrəli, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2012-ci il 29 noyabr tarixli 758 nömrəli, "2012-ci il oktyabrın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bosniya və Herseqovinanın Mülki İşlər Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" 2012-ci il 19 dekabr tarixli 784 nömrəli, "Gənclər üçün Prezident Mükafatının təsis edilməsi haqqında" 2013-cü il 2 iyul tarixli 934 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 8 iyul tarixli 938 nömrəli və "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2013-cü il 8 iyul tarixli 939 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 7 mart tarixli 303-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 aprel tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 285; 2021, № 6 (I kitab), maddə 573) 3.3-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292; 2017, № 1, maddə 50; 2018, № 9, maddə 1840, № 11, maddə 2263; 2019, № 3, maddə 430, № 5, maddə 823; 2020, № 8, maddə 1042; 2022, № 5, maddə 475, № 9, maddə 1028) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə "Tədbirlər Planı" hissəsinin 8.3.2-ci yarımbəndinin "İcraçı qurumlar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566, № 8, maddə 922; 2022, № 6, maddə 599) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 1.3-cü və 2.3-cü bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 9 iyul tarixli 680 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 689; 2013, № 6, maddə 633; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 786, 802, № 7, maddə 1362; 2019, № 3, maddə 401; 2020, № 2, maddə 106, № 6, maddə 698; 2021, № 2, maddə 123) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin 1.5-ci, 4.15-ci bəndlərində və 6.1-ci bəndinin ikinci abzasında "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 yanvar tarixli 1963 nömrəli Fərmanı) 1.2.2-ci və 1.4.2-ci yarımbəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "2012-ci il oktyabrın 18-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bosniya və Herseqovinanın Mülki İşlər Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 dekabr tarixli 784 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1258) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 2 iyul tarixli 934 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 799; 2018, № 5, maddə 951; 2019, № 6, maddə 1052) ilə təsdiq edilmiş "Gənclər üçün Prezident Mükafatının Əsasnaməsi"nin 3.1.1-ci yarımbəndində və 4.2-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803; 2014, № 9, maddə 1050, № 11, maddələr 1382, 1413, № 12, maddə 1588; 2015, № 10, maddə 1121; 2016, № 6, maddələr 1020, 1044, № 11, maddə 1827; 2018, № 7 (I kitab), maddə 1476; 2019, № 7, maddə 1240; 2020, № 6, maddə 703; 2021, № 1, maddə 36) 5.13-cü və 5.17-2-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 804; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 787, 802, № 7, maddə 1363; 2018, № 4, maddə 698; 2019, № 3, maddə 401; 2020, № 2, maddə 106, № 6, maddə 698, № 7, maddə 868; 2021, № 2, maddə 123) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin 1.4-cü, 4.13-cü, 4.17-ci, 6.13-cü və 6.14-cü bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 11 aprel tarixli 860 nömrəli, "Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında təhsil, ali təhsil və elmi tədqiqat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 885 nömrəli, "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 24 iyun tarixli 978 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2016-cı il 4 avqust tarixli 1007 nömrəli, "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli və "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1952 nömrəli, 2023-cü il 12 yanvar tarixli 1964 nömrəli, 14 yanvar tarixli 1978 nömrəli fərmanları) 4.30-1-ci və 5.4-1-ci bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665, № 8, maddə 1369; 2017, № 7, maddə 1332; 2019, № 3, maddələr 405, 411; 2020, № 4, maddə 397, № 7, maddə 895; 2021, № 2, maddə 125) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nin 2.1.3-cü, 2.1.7-ci, 2.1.8-ci, 2.1.16-cı və 2.1.27-ci yarımbəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında təhsil, ali təhsil və elmi tədqiqat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 aprel tarixli 885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 690) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 iyun tarixli 978 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1074; 2017, № 7, maddə 1371; 2020, № 2, maddə 107; 2021, № 2, maddə 125; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1943 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının Nizamnaməsi"nin 1.4-cü, 4.10-cu bəndlərində, 4.13-cü bəndinin birinci cümləsində və 9.20-ci bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli 1007 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1368; 2017, № 7, maddə 1372; 2020, № 2, maddə 107, № 7, maddə 868; 2021, № 2, maddə 126) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Nizamnaməsi"nin 1.4-cü, 4.8-ci bəndlərində, 4.11-ci bəndinin birinci cümləsində və 9.14-cü bəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli 1066 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1625; 2019, № 2, maddə 237; 2020, № 8, maddə 1046) 1-ci hissəsində "Təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin.

7. "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1834; 2018, № 2, maddə 194, № 5, maddə 921; 2019, № 6, maddə 1037) 7.4-cü bəndində və 8-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli, "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" 2017-ci il 2 noyabr tarixli 1650 nömrəli, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" 2018-ci il 5 fevral tarixli 1815 nömrəli və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 6 iyun tarixli 119 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2056; 2017, № 8, maddə 1521, № 10, maddə 1777; 2018, № 5, maddə 920, № 6, maddə 1196, № 7 (I kitab), maddələr 1496, 1506, № 11, maddə 2287; 2019, № 2, maddələr 218, 236, № 4, maddə 625, № 5, maddələr 848, 855; 2020, № 2, maddə 100, № 9, maddə 1148; 2021, № 1, maddə 43, № 12, maddə 1416; 2022, № 5, maddə 466) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin "10. Tədbirlər planı" hissəsinin 2.5.2-ci və 2.5.4-cü yarımbəndlərinin "Əsas icraçı" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 noyabr tarixli 1874 nömrəli, 28 noyabr tarixli 1890 və 1892 nömrəli, 2023-cü il 14 yanvar tarixli 1978 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6-cı hissədə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə, birinci halda "təhsil" sözü "elm və təhsil" sözləri ilə əvəz edilsin;

2.2. 14.2-ci və 31-11.1-ci bəndlərdə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1650 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 1989) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2341; 2018, № 7 (I kitab), maddə 1447; 2021, № 1, maddə 44) 2.2-ci və 2.3-cü bəndlərində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1815 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 179) 2-ci hissəsində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019, № 5, maddələr 822, 825, № 10, maddə 1588, № 12, maddə 1929; 2020, № 7, maddə 892; 2022, № 9, maddə 1030, № 11, maddə 1256) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3.1.47-ci yarımbəndində "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

---

Azərbaycan Respublikası Prezidentinin "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 14 fevral tarixli 3672 nömrəli, "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" 2018-ci il 29 mart tarixli 3851 nömrəli, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 27 dekabr tarixli 852 nömrəli və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2019-cu il 22 iyul tarixli 1334 nömrəli sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275; 2019, № 5, maddələr 877, 899, № 8, maddə 1065, № 11, maddə 1377; 2022, № 5, maddə 532, № 8, maddə 912) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın "5. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1.1.6-cı, 5.1.1.7-ci və 5.1.3.1-ci yarımbəndlərin "İcraçılar" sütununda "TN" akronimi "ETN" akronimi ilə əvəz edilsin;

1.2. 5.1.2.9-cu yarımbəndin "İcraçılar" sütununda "AMEA" akronimi "ETN" akronimi ilə əvəz edilsin;

1.3. "Akronimlər" hissəsi üzrə:

1.3.1. "TN - Azərbaycan Respublikasının Təhsil Nazirliyi" sözləri "ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.3.2. "AMEA - Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

2. "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571; 2019, № 2, maddə 306, № 6, maddə 1129; 2022, № 5, maddə 532) 1-ci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2701; 2021, № 6 (I kitab), maddə 606; 2022, № 5, maddə 532, № 8, maddə 912) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın "7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1.8.2-ci, 7.4.1.1-7.4.1.6-cı, 7.4.4.2-ci, 7.4.4.3-cü və 7.4.4.6-cı yarımbəndlərin "Digər icraçı qurumlar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

3.2. 7.2.12.1-ci və 7.2.12.2-ci yarımbəndlərin "Digər icraçı qurumlar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

3.3. 7.4.3.1-ci və 7.4.3.2-ci yarımbəndlərin "Əsas icraçı qurum" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276; 2020, № 12 (III kitab), maddə 1537) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1.7-ci, 4.1.11-ci və 4.1.21-ci yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.2. 4.3.6-cı yarımbəndin "İcraçı orqanlar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

4.3. 4.4.4-cü, 4.4.6-cı, 4.4.12-ci, 4.4.17-ci, 4.4.18-ci, 4.4.25-ci, 4.4.26-cı, 4.4.29-cu, 4.4.34-cü və 4.4.37-ci yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin;

4.4. 4.4.7-ci yarımbəndin "İcraçı orqanlar" sütununda "Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.5. 4.4.14-cü yarımbəndin "İcraçı orqanlar" sütununa "Kənd Təsərrüfatı Nazirliyi," sözlərindən sonra "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin və həmin yarımbəndin "İcraçı orqanlar" sütunundan "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın;

4.6. 4.4.15-ci və 4.4.16-cı yarımbəndlərin "İcraçı orqanlar" sütununda "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.7. 4.4.23-cü yarımbəndin "İcraçı orqanlar" sütununa "Gənclər və İdman Nazirliyi," sözlərindən sonra "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2023-cü il*

# 5 Mart Bədən Tərbiyəsi və İdman Günüdür



# Yüksəliş

## Qarabağ və Şərqi Zəngəzur da artıq beynəlxalq idman yarışlarının mərkəzinə çevrilir

**Azərbaycan gəncliyi, idmançısı üzərinə düşən missiyanı, ona həvalə edilən vəzifəni layiqincə yerinə yetirməyə hazırdır. Çünki ona hərtərəfli qayğı və diqqət göstərilir, idmanın inkişafına ciddi fikir verilir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan azsaylı ölkələrdəndir ki, idman gününü təsis edib. Belə ki, 2005-ci ildə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 5 mart tarixi ölkəmizdə "Bədən Tərbiyəsi və İdman Günü" kimi qeyd olunur.**

Xatırladaq ki, 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev ölkədə bədən tərbiyəsi və idmanın inkişafında yeni bir mərhələnin əsasını qoyaraq, dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüş keçirib və bundan sonra ölkəmizdə İdman Fondu yaradılıb. Bu tarixin əbədiləşdirilməsi məqsədilə Azərbaycanda idman gününün təsis olunması ictimaiyyət tərəfindən yüksək qarşılanıb.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr ölkəmizə böyük imic qazandırıb. Bu bayram günündə idmanımızın ötən bir ildə keçdiyi yola nəzər salınsa, böyük nailiyyətlər qazanıldığını görmək olur.

Ümumiyyətlə, 2022-ci il ərzində Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında, kubok yarışlarında, digər rəsmi beynəlxalq turnirlərdə 837 medal qazanıblar. Bunun 356-sı (116 qızıl, 101 gümüş, 139 bürünc) Olimpiya, 384-ü (110 qızıl, 105 gümüş, 169 bürünc) qeyri-Olimpiya, 97-si (44 qızıl, 18 gümüş, 35 bürünc) paralimpiya proqramının payına düşür.

Yola saldığımız ildə ən yaddaqalan idman hadisələrindən biri Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunları idi. Azərbaycan idmançıları turniri 99 medalla bitirdi və 56 ölkə arasında 4-cü yeri tutdu. Medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü bürünc idi. Azərbaycan yığması medallarını 19 növdə - güləş (8 qızıl, 8 gümüş, 7 bürünc), bədii gimnastika (5 qızıl, 2 gümüş, 1 bürünc), cüdo (2 qızıl, 3 gümüş, 2 bürünc), aerobika (2 qızıl, 3 gümüş), qılıncoynatma (2 qızıl, 2 gümüş, 2 bürünc), taekvondo (1 qızıl, 2 gümüş, 2 bürünc), idman gimnastikası (1 qızıl, 2 gümüş, 1 bürünc), atletika (1 qızıl, 2 gümüş), kikboksinq (3 qızıl, 5 gümüş, 7 bürünc), üzgüçülük (1 qızıl, 1 gümüş, 1 bürünc), 3X3 basketbol (1 qızıl, 1 gümüş), stend atıcılığı (1 qızıl, 1 gümüş), ağırlıqqaldırma (1 gümüş, 3 bürünc), həndbol (1 gümüş), karate (1 qızıl, 2 gümüş, 3 bürünc), para-oxatma (2 bürünc), parastolüstü tennis (1 bürünc), voleybol (1 bürünc) və futbolda (1 bürünc) əldə etdi.

Prezidentin söylədiyi kimi, qalib ölkənin idmançıları qəhrəman kimi mübarizə aparıb bayrağımızı ən yüksək kürsülərdə dalğalandırdılar. Döyüş meydanlarında əldə edilmiş qələbə idman yarışlarında da əksini tapdı. Azərbaycan idmançıları İslamiadadan Vətənə zəfərlə qayıtdılar. Ölkə rəhbəri bunu belə qiymətləndirdi: "Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq, əlbəttə ki, böyük qələbədir, böyük nailiyyətimizdir".

Eyni zamanda Azərbaycan dünyanın ən böyük idman tədbirlərindən biri olan "Formula-1" üzrə dünya çempionatına ötən mövsüm 6-cı dəfə evsahibliyi etdi. Azərbaycan Qran-prisi maraqlı və gərgin mübarizə ilə yadda qaldı. 500 milyondan artıq tamaşaçı kütləsinə malik yarışı 60-dan çox ölkədən çoxlu sayda azarkeş paytaxtımızda tribunalardan izlədi.














Ötən il minifutbol üzrə milli komandamızın Avropa çempionu olması, "Qarabağ" klubunun isə avrokuboklarda ardıcıl 9-cu dəfə qrup mərhələsinə vəsiqə qazanması da yaddaqalan idman hadisələri sırasında yer aldı.

Bu gün işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri gedir. Azad edilmiş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzindədir. Heç şübhə yoxdur ki, tezliklə yeni olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa ediləcəyi əsas məkanlardan biri də işğaldan azad edilən ərazilərimiz olacaq. Avarçəkmədən tutmuş güləşə, şahmatdan başlamış müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növlərində Azərbaycanı layiqincə təmsil edəcək yeni idmançılar nəsli işğaldan azad olunmuş ərazilərimizdə də yetişəcək.

Çox təqdirəlayiq haldır ki, artıq işğaldan azad olunan torpaqlar beynəlxalq idman yarışlarının mərkəzinə çevrilib. İlk belə turnir isə ötən il mayın 6-7-də keçirilən Suqovuşan qəsəbəsində avarçəkmə üzrə "Prezident kuboku-2022" reqatası olub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən bu yarış işğaldan azad olunmuş ərazilərdə ilk beynəlxalq turnir kimi yadda qaldı.

Sentyabrda isə Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası (AŞF) və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşada Qarabağ xanlığının sonuncu varisi, görkəmli şair və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş "Shusha Chess-2022" beynəlxalq turnir keçirilib.

Zəngilan rayonunun Ağalı kəndi isə "Zəfər yürüşü" triatlon turnirinə evsahibliyi edib. Bu, torpaqlarımızın işğaldan azad edilməsindən sonra vətəndaşlarımızın məskunlaşdığı yaşayış məntəqəsində ilk idman yarışı, azad edilmiş ərazilərimizdə isə (Şuşa və Suqovuşandan sonra) dördüncü turnirdir.

Göründüyü kimi, Azərbaycanın idman potensialı ildənilə daha da güclənir. Hər il beynəlxalq turnirlərdə yüzlərlə medal qazanılır. Bədən tərbiyəsi və idmanın inkişafı naminə yürüdülən dövlət siyasəti düşünülmüş, məqsədyönlü olduğundan gözlənilən nəticələr əldə edilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İdman mütəxəssisləri Ulu Öndər Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüblər

**5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında tədbir keçirilib. MOK-dan AZƏRTAC-a bildiriblər ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Fərid Qayıbov, komitənin baş katibi Azər Əliyev, Olimpiya çempionları, tanınmış idman veteranları və mütəxəssisləri iştirak ediblər.**





Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Azərbaycan idmanının tarixindəki rolundan, fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Sonra tədbir iştirakçıları çıxış edərək Ümummilli Lider Heydər Əliyev ilə bağlı xatirələrini bölüşüblər.

1995-ci il martın 5-də Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuş Olimpiya çempionu Nazim Hüseynov həmin gündən danışıb. O, həmin gün bir qrup idman mütəxəssisinin orden və medallarla təltif edildiyini də xatırladıb.

MOK-un vitse-prezidenti Ç.Hüseynzadə bu tarixi gündən əsasını götürən və ölkəmizdə böyük uğurla davam etdirilən idmanın və Olimpiya Hərəkatının inkişaf mərhələlərinin şahidi və iştirakçısı olmağın bəxş etdiyi qürur və fərəh hissini bölüşərək deyib: "Ulu Öndər Heydər Əliyev Azərbaycan idmanının inkişafına çox böyük töhfələr verib, diqqət və qayğı göstərib. Ümummilli Liderin Azərbaycan idmanına göstərdiyi diqqət və qayğı ilə yanaşı, ən böyük töhfəsi İlham Əliyevə Milli Olimpiya Komitəsinə rəhbərliyi təklif etməsi olub".

Vaxtilə Azərbaycanın idman şərəfini qoruyan, ölkəmizin hüdudlarından kənarda yaşayan həmyerlilərimizin xatirələri də tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Atıcılıq üzrə dünya çempionatının üçqat gümüş mükafatçısı, Avstraliyada yaşayan Valeri Timoxinin, Rusiyada yaşayan voleybol üzrə ikiqat Olimpiya, üçqat Avropa çempionu, həmyerlimiz İnna Rıskalın, ABŞ-də məşqçilik fəaliyyətini davam etdirən qılıncoynatma üzrə dünya çempionu, beşqat SSRİ çempionu Samir İbrahimovun Ulu Öndərlə bağlı xatirələrindən bəhs edən videomüsahibələri alqışlarla qarşılanıb.

MOK-un vitse-prezidenti, Olimpiya çempionu Zemfira Meftaxetdinova, komitənin Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev, MOK-un İcraiyyə Komitəsinin üzvü Faiq Qarayev, Əməkdar məşqçi Asif Əsgərov, beynəlxalq dərəcəli hakim Vahid Nəzərov, SSRİ-nin Əməkdar məşqçisi Ağayar Axundzadə, Olimpiya Oyunlarının mükafatçısı Vüqar Ələkbərov, üçqat dünya çempionu Məhyəddin Allahverdiyev, beynəlxalq dərəcəli qrossmeyster Aynur Sofiyeva və başqaları Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda idmana və idmançılara göstərdiyi diqqət və qayğıdan danışıblar. Qeyd edilib ki, ölkəmizdə idman və Olimpiya Hərəkatı dövlətin, şəxsən Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin daimi qayğısı ilə əhatə olunub. 5 Mart - Bədən Tərbiyəsi və İdman Gününün təsis edilməsi də bu qayğının parlaq təzahürüdür.

Tədbirdə 2022-ci ilin yekunları ilə bağlı 5 nominasiya üzrə "Ədalət prinsiplərinə sadiq" mükafatının qalibləri təltif olunub. Könül Mahmudova "Ədalətli Oyunlar prinsiplərinə sadiq təbliğatçısı", Taleh Ziyadov "Ədalətli Oyunlar prinsiplərinə sadiq idman xadimi", Asif Məlikov "Ədalətli Oyunlar prinsiplərinə sadiq idman hakimi", Qurban Qurbanov "Ədalətli Oyunlar prinsiplərinə sadiq məşqçi", Eldəniz Əzizli isə "Ədalətli Oyunlar prinsiplərinə sadiq idmançı" nominasiyaları üzrə mükafata layiq görülüblər.

Bundan başqa, stolüstü tennis üzrə SSRİ İdman ustası, beynəlxalq dərəcəli hakim Aleksandr Zudova Azərbaycan və Rusiya dövlətləri arasında Olimpiya hərəkatına, beynəlxalq əməkdaşlıq sahəsindəki töhfəyə görə Rusiya Milli Olimpiya Komitəsi tərəfindən təltif olunduğu xüsusi diplom verilib. Çimərlik güləşi üzrə yığma komandanın baş məşqçisi Oyan Nəzərianiyə isə 2019-cu ildə Dohada keçirilən çimərlik oyunlarının bürünc medalı təqdim edilib.

# *Bəxtiyar QULİYEV:* "Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra idmanımız şərəfli yol keçib"

**Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra idmanımız şərəfli yol keçib. İdmançılarımız bu müddət ərzində dünyanın müxtəlif arenalarında öz sözlərini deyib, üçrəngli bayrağımızı ucaldaraq himnimizi səsləndiriblər.**

Bu sözləri 5 Mart - Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı AZƏRTAC-a açıqlamasında Azərbaycan Stronqmen Federasiyasının prezidenti, Dünya Stronqmen Federasiyasının vitse-prezidenti Bəxtiyar Quliyev deyib.



Bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev tərəfindən uğurla davam etdirilən idman siyasəti öz bəhrəsini verməkdədir. Azərbaycan beynəlxalq idman qurumları tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur və onlar heç bir tərəddüd etmədən irimiqyaslı yarışların təşkilini ölkəmizə həvalə edirlər. "Bakı-2015" I Avropa və "Bakı-2017" IV İslam Həmrəyliyi oyunlarının yüksək səviyyədə təşkili, atletlərimizin mötəbər yarışlarda əldə etdiyi nailiyyətlər və ölkəmizin beynəlxalq idman hərəkatının mərkəzinə çevrilməsi uğura hesablanmış dövlət siyasətinin tərkib hissəsidir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun qazandığı qələbədə idmançılarımız da öz şücaətləri ilə seçiliblər. Azərbaycanda idmana göstərilən dövlət qayğısı nəticəsində gənclərin vətənpərvər ruhda formalaşması, onların pis vərdişlərdən uzaq olması, asudə vaxtlarının səmərəli təşkili və bədən tərbiyəsinə cəlb edilməsi əsas prioritet istiqamətlərdəndir. Ulu Öndər Heydər Əliyev həmişə idman və idmançılara böyük qayğı ilə yanaşıb. Belə ki, ölkəmizdə Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması təsadüfi deyil. 1995-ci il martın 5-də Ümummilli Lider Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib. Bununla da ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməli qoyulub.



# Heydər Əliyev İli 2023



# Ulu Öndər bizə Azərbaycanı məhz onun kimi sevməyi öyrətdi

**Dahi şəxsiyyət Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı hərtərəfli inkişaf etmiş müstəqil, dünya birliyində öz sözünü deyə bilən bir dövlət kimi görmək idi. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" söyləyən Ulu Öndərin ən böyük arzusu artıq reallaşıb. Azərbaycanı, xalqımızı bəlalardan xilas edən Ümummilli Liderin əsasını qoyduğu daxili və xarici siyasət kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu gün dünya dövlətləri içərisində öz layiqli yerini tutub.**

Ulu Öndər Heydər Əliyev bugünkü müstəqil Azərbaycanın dövlətçiliyinin gələcək inkişaf strategiyasını yaradaraq, demokratik, hüquqi dövlətin qurulmasına, ölkəmizin beynəlxalq miqyasda nüfuz qazanmasına zəmin yaradıb. Bütün mənalı ömrünü öz xalqının və Vətəninin inkişafına sərf edən Ümummilli Liderin misilsiz zəhməti ilə Azərbaycan zamanın ən çətin və mürəkkəb sınaqlarına sinə gərdi, əbədi müstəqilliyi əldə etdi.

Milli qürurumuzu özümüzə qaytaran, soydaşlarımızın birliyini bərpa edən Ulu Öndər Heydər Əliyev elini-obasını sevən hər bir azərbaycanlıya Vətənini məhz onun kimi sevməyi öyrətdi. Dahi şəxsiyyətin "Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" sözləri əbədi olaraq dilimizdə şüara çevrildi.

Azərbaycan tarixinə ağır, məşəqqətli illər kimi daxil olan XIX əsrin 90-cı illərinin əvvəllərində, ölkəmiz dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qaldığı bir vaxtda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı təlatümlü günlər yaşayan Azərbaycanı məhv olmaqdan, onun beynəlxalq aləmdən təcrid edilməsindən qurtardı.

Qürurverici haldır ki, Ümummilli Liderin misilsiz zəhməti sayəsində, qoyduğu möhkəm bünövrənin üstündə ucalan müstəqil Azərbaycanın adı bu gün dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada çəkilir.

Azğın düşmən tərəfindən zəbt olunmuş torpaqlarımızın azad edilməsi, soydaşlarımızın ata-baba yurdlarına qovuşmaları da Ulu Öndərin bizə miras qoyduğu məqsədyönlü, çevik, praqmatik siyasətin Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində reallığa çevrildi. 44 günlük Vətən müharibəsində dahi rəhbər Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan böyük qələbə sevincini yaşadı. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qəhrəman əsgər və zabitləri canları, qanları bahasına torpaqlarımızı düşmən tapdağından birdəfəlik azad etdi. Dünya Azərbaycanın tayı-bərabəri olmayan misilsiz zəfərinə şahidlik etdi.

Təməlində Heydər Əliyev siyasi fəlsəfəsi dayanan bu günün müasir, müstəqil Azərbaycanı yüksək zirvələrə ucaldı. Ulu Öndərin həyat yoluna nəzər saldıqda dahi şəxsiyyətin fəaliyyətinin ilk dövründən başlayaraq ömrünün sonuna kimi gördüyü işlərin bu fəlsəfəni həyata keçirmək məqsədi daşıdığının şahidi oluruq. Xarakterindəki yüksək əzmkarlıq, ilk növbədə özünə və ətrafındakılara qarşı tələbkarlıq, Azərbaycanı canından da artıq sevməsi adını tarixə qızıl hərflərlə yaşdıran Ümummilli Lider Heydər Əliyevi fərqləndirən başlıca xüsusiyyətlərdən idi.

Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə respublikada və onun regionlarında əhalinin yaşayış səviyyəsinin qaldırılmasını, iqtisadi dirçəlişi xüsusilə diqqətdə saxlayırdı. Ölkədə aqrar sahələrlə yanaşı, yeni maşınqayırma, energetika, kimya və neft-kimya, yüngül və yeyinti sahələrinin inkişafı xalqın yaşayış rifahının yüksəlməsinə hesablanırdı.

Respublikanın bütün şəhər, rayon və kəndləri kimi, Azərbaycan tarixində öz yeri və mövqeyi ilə seçilən qədim Gəncə - dahi Nizaminin yurdu da Ulu Öndər Heydər Əliyevin daim diqqətində olmuşdur. Hələ SSRİ dövründə Gəncənin iqtisadi potensialının gücləndirilməsi, zavod və fabriklərin fəaliyyətinin genişləndirilməsi, təhsil, səhiyyə, mədəniyyət sahələrinin inkişafı birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı idi. Ulu Öndər Heydər Əliyevin dünyaşöhrətli Nizami Gəncəvi yurduna hər işgüzar səfəri bayrama çevrilirdi. Dahi rəhbərin hər səfərindən sonra qədim Gəncənin intibah dövrü başlayırdı.

Böyük azərbaycanlı Heydər Əliyevin Gəncəyə səfəri bir də 13 il sonra reallaşmışdı. Bu dəfə dahi rəhbər Gəncəyə Müstəqil Azərbaycanın qurtuluşun bünövrəsi qoyulduğu 1993-cü ilin qanlı-qadalı 4 iyunundan 6 gün sonra müdrik el ağsaqqalı kimi gəlmişdi. Ulu Öndər Heydər Əliyevin müdrikliyi, nüfuzu sayəsində yerində olmayan rəhbərlərin xaos və anarxiyası üzündən ölkədə hökm sürən hərc-mərcliyin, qardaş qırğınının qarşısı alındı. Xalqımızın xilaskarı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkəmizin şəhər, rayon və kəndləri, o cümlədən Nizami yurdu yeni inkişaf mərhələsinə qədəm qoydu.

Fəxrlə onu da xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti seçildikdən sonra ilk işgüzar səfəri də Gəncəyə olmuşdu.

Qədirbilən gəncəlilər Ulu Öndər Heydər Əliyevi həmişə məhəbbətlə, ehtiramla yad edirlər. Ümummilli Liderin ən möhtəşəm abidəsi hər bir Gəncə sakininin ürəyində yurd salıb. Prezident İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi barədə imzaladığı sərəncamı Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları kimi, qədim Gəncənin sakinləri də böyük sevinclə qarşıladılar. Xalqımızı dünyada təklənmək təhlükəsindən xilas edən müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ilinə təsadüf edən 2023-cü ilin "Heydər Əliyev İli" kimi geniş qeyd edilməsi də Azərbaycan xalqının milli tariximizin ən qüdrətli simasına olan sonsuz məhəbbətindən irəli gəlir.

Xalqına şərəflə xidmət edən müstəqil Azərbaycan dövlətinin memarı Ümummilli Lider Heydər Əliyevin bizlərə bəxş etdiyi dövlətçilik irsi ölkəmizi inkişafın, tərəqqinin yeni pillələrinə yüksəldir. Dahi şəxsiyyətin həyat fəlsəfəsi Vətənini, ei-obasını sevən hər bir azərbaycanlıya örnəkdir. Ulu Öndərin irsini öyrənmək, qorumaq, təbliğ etmək, gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs borcudur.

Ulu Öndərin inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyev dahi rəhbərin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə başa çatdırdı. Dönüb ötən dövrə nəzər saldıqda Azərbaycanın İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə nə qədər möhtəşəm inkişaf mərhələsi keçdiyinin canlı şahidi oluruq. Dahi rəhbərin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, müstəqil dövlətimizin gələcəyi etibarlı əllərdədir.

***Ramil ORUCOV,***
***YAP Gəncə şəhər təşkilatının sədri***

# YAP-da islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoyub

**Azərbaycanın siyasi həyatında xüsusi yeri olan Yeni Azərbaycan Partiyası ilə bağlı hər bir əlamətdar gün respublikamızın müasir tarixinin mühüm hadisəsidir.**



Çünki 31 il əvvəl YAP-ın siyasi meydana çıxması xalqımızın Ulu Öndəri Heydər Əliyevin müstəqilliyimizin qorunması, dövlətçiliyimizin xilas edilməsi istiqamətində apardığı milli-tarixi mücadiləsinin əsas mərhələlərindəndir. Heydər Əliyevin xalqımız qarşısındakı xidmətləri, o cümlədən Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik nümunəsi Azərbaycanın mütərəqqi insanlarını bu dahi şəxsiyyətin ətrafında birləşdirdi.

YAP-ın yaradılması xəbəri o dövrdə Azərbaycanın siyasi həyatında ən böyük hadisəyə çevrilmişdi. Təsadüfi deyil ki, yaradıldıqdan cəmi bir neçə ay sonra artıq partiyanın sıralarında on minlərlə üzv birləşmiş, çoxsaylı yerli təşkilatları yaradılmışdı. Təbii ki, bunun başlıca səbəbi cəmiyyətdə Ulu Öndər Heydər Əliyevə olan yüksək etimad və güclü inam idi. Elə bu inamın nəticəsi kimi YAP yaranmasından qısa müddət sonra hakim partiya statusunu qazandı. Bu baxımdan Heydər Əliyevin 1993-cü ilin iyun ayında siyasi hakimiyyətə qayıdışından sonra müxalifət partiyası kimi yaranmış YAP-ın statusu da şəraitə uyğun olaraq dəyişdi, ölkənin siyasi həyatında mövqeyi daha da möhkəmləndi.

Xalqın Heydər Əliyevə olan inam və etimadının təcəssümü olaraq YAP respublikamızın ən böyük siyasi qüvvəsinə çevrildi, öz məram və prinsiplərindən çıxış edərək Azərbaycanın yüksəlişinə layiqli töhfələrini verməyə başladı. Ulu Öndərin rəhbərliyi ilə YAP-ın fəaliyyətində demokratik dəyərlərə söykənməsi, hüquqi dövlətçilik, azad vətəndaş cəmiyyəti, sərbəst iqtisadiyyat yaradılması kimi hədəfləri müəyyənləşdirməsi partiyanın sıralarını daha da möhkəmləndirdi, onu ölkəmizin inkişafı uğrunda daha dinamik fəaliyyətə sövq etdi.

2003-cü ilin oktyabr ayında prezident seçkilərindən öncə xalqımıza müraciət edən Ümummilli Lider Heydər Əliyev demişdi: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər".

Azərbaycanın inkişafı və əldə etdiyimiz bütün uğurlar Ulu Öndər Heydər Əliyevin nə qədər müdrik və uzaqgörən şəxsiyyət olmasından xəbər verir. Öncə onu qeyd edim ki, möhtərəm Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə partiyamız bu illər ərzində öz sıralarını daha da böyüdüb, ümummilli siyasi istinad ünvanı kimi mövqelərini daha da gücləndirib. Hazırda 773 min nəfər üzvü olan YAP regionun ən böyük siyasi partiyasıdır. Respublikamızda keçirilən hər bir seçkidə YAP-ın birmənalı şəkildə uğur qazanması partiyamıza olan milli etimadın təcəssümüdür.

Xüsusilə qeyd etmək lazımdır ki, bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi inkişafa nail olub, regionda və dünyada mövqelərini daha da möhkəmləndirib. Vətən müharibəsində qazanılan hərbi qələbə bu gün dinc quruculuq meydanında davam etdirilir, Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar əlbəttə ki, həm də YAP-ın cəmiyyətimizdəki mövqelərini daha da gücləndirir. Bu baxımdan YAP-ın fəaliyyəti ilə bağlı olan hər bir hadisənin diqqət və maraqla qarşılanması da partiyamızın siyasi arenadakı güclü mövqeyinin və xalqın yüksək etimadının göstəricisidir. YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayı bütün bunları təsdiq edir.

Mühüm qərarların qəbulu ilə yadda qalan YAP-ın VII qurultayı partiyamızın həyatında əlamətdar hadisə olmaqla, bütövlükdə partiya fəaliyyətini yeni mərhələyə yüksəltdi. Qurultaydan sonra Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi bütövlükdə partiya fəaliyyətinin daha da güclənməsinə səbəb oldu. Vacib qərarlardan biri də partiyada yeni idarəçilik mexanizminin yaradılması oldu. Bu mənada yeni tərkibdə formalaşdırılan idarə heyəti partiyanın idarəçiliyinin daha da təkmilləşdirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etdi. O cümlədən ötən iki ilin reallıqları göstərir ki, yeni nizamnamənin qəbulu daha çevik partiya fəaliyyətinin həyata keçirilməsinə imkan yaratdı.

YAP Veteranlar Şurasının yaradılması da təqdirəlayiqdir. Hazırda YAP-ın sıralarında partiya quruculuğunda fəal iştirak edən, dövlətçiliyə yüksək xidmət göstərən veteranlar birləşib. Ona görə partiyanın tərkibində Veteranlar Şurası kimi yeni strukturun təsis olunması hər bir YAP üzvü tərəfindən böyük razılıqla qarşılandı. Ötən iki ilin mənzərəsi də göstərir ki, Veteranlar Şurası olduqca fəaldır.

VII qurultay həm də yeni çağırışlar fonunda zamanın nəbzini tutmaqla YAP-ın qarşısında dayanan vəzifələri müəyyənləşdirdi. Bu baxımdan Prezident, YAP Sədri İlham Əliyevin proqram xarakterli çıxışı olduqca mühüm əhəmiyyət kəsb etdi. Həmin nitqində cənab Prezident demişdi: "Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq, daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm".

Ötən iki il göstərir ki, YAP-ın VII qurultayı və qəbul olunan qərarlar partiya fəaliyyətində mühüm keyfiyyət dəyişikliklərinə səbəb olub. Bütövlükdə sonuncu qurultaydan ötən dövr göstərir ki, fəaliyyətini dövrün nəbzini tutmaqla uğurla həyata keçirən YAP Azərbaycanın ən böyük siyasi partiyası və siyasi istinad ünvanı kimi qarşısında dayanan bütün vəzifələri layiqincə və qətiyyətlə yerinə yetirir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Azərbaycan nümayəndə heyəti ABŞ-nin Briqham Yanq Universitetində olub

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin ABŞ-yə səfəri davam edir.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, martın 2-də Yuta ştatının Briqham Yanq Universitetində (BYU) professor-müəllim heyəti və tələbələrlə görüş olub. Otuz beş min tələbənin təhsil aldığı universitetin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Cef Ringer azərbaycanlı qonaqları salamlayaraq onlara ali təhsil müəssisəsinin tarixi və tədris sistemi barədə ətraflı məlumat verib. Bildirilib ki, "Sonuncu günün müqəddəsləri" kilsəsi tərəfindən təsis olunmasına baxmayaraq, universitet dini təmayüllü deyil. Burada tədris edilən 65 dil arasında Azərbaycan dili də yer alır. Görüşdə həmçinin BYU ilə Azərbaycan ali təhsil müəssisələri arasında tələbə mübadiləsi imkanları ətrafında müzakirə aparılıb.

Daha sonra QMİ sədri Allahşükür Paşazadə tələbələr qarşısında "Dinlərarası dialoq" mövzusunda mühazirə oxuyub. Qeyd edib ki, Azərbaycanın və Birləşmiş Ştatların müxtəlif dini konfessiyaları, icmaları arasında qurulan əlaqələr dinlərarası dialoq prosesinin mühüm parçası sayıla bilər. Multikultural dəyərlər və tolerantlıq məkanı olan Azərbaycan ərazisində tarixən mövcud olmuş dini müxtəlifliyə, qədim köklərə malik zəngin tolerantlıq ənənələrinə göstərilən dövlət qayğısına toxunaraq vurğulanıb ki, bu ənənələrin qorunmasında və dövlət siyasəti səviyyəsinə yüksəldilməsində, eləcə də beynəlxalq miqyasda geniş təbliğ olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətləri vardır. Otuz il işğal altında saxlanılan ərazilərin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Ermənistanın işğalçılıq və islamofobiya siyasətinə, xalqımızın maddi-mədəni irsinə, abidələrinə, dini məbədlərə qarşı vandalizmə son qoyuldu. Qələbənin əldə edilməsində Azərbaycanda yaşayan xalqlar və müxtəlif dini icmalar arasında həmrəyliyin, qardaşlığın da böyük zəfərdə payı var. QMİ sədri "Stirlinq" fonduna işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsində göstərdiyi maddi-mənəvi dəstəyə görə Azərbaycan xalqı adından bir daha təşəkkür etdi və Yuta ştatının Xocalı soyqırımını tanıyan ilk ABŞ ştatlarından biri olmasını olduqca yüksək qiymətləndirdiyini bildirib.

Mühazirənin sonunda Şeyxülislam Allahşükür Paşazadə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, Dağ yəhudiləri dini icmasının sədri Melix Yevdayev, Alban-udi dini icmasının rəhbəri Robert Mobili, Roma katolik kilsəsinin Azərbaycandakı nümayəndəsi Vladimir Fekete tələbələrin suallarına cavab veriblər.

Tədbirdə Azərbaycan Respublikasının ABŞ-dəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim də iştirak edib.

Daha sonra Azərbaycan nümayəndə heyəti Kol Ami sinaqoqunda yerli yəhudi dini icmasının nümayəndələri ilə görüşüb. Daha əvvəl Azərbaycanı ziyarət etmiş ravvin Sem Spektor ölkəmiz haqqında, burada hökm sürən unikal tolerantlıq və multikulturalizm mühiti barədə məlumat verdikdən sonra "Azərbaycanın Dağ yəhudiləri" mövzusunda panel iclası keçirilib. Şeyxülislam Allahşükür Paşazadə yutalı yəhudilərə Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrindən, Prezident İlham Əliyevin bu istiqamətdə yürütdüyü siyasət, Azərbaycanın etnik və dini rəngarəngliyi haqqında danışıb və toplaşanların suallarına cavab verib. Sonra səfir Xəzər İbrahim, Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov çıxış ediblər və auditoriyanın suallarına cavab veriblər.

Səfər davam edir.

# Qoşulmama Hərəkatının fəaliyyətində ən uğurlu dövr

## Azərbaycanın 120 dövləti birləşdirən beynəlxalq təsisata sədrliyi nümunəviliyi ilə seçilir

**Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, paytaxt Bakının bunlara uğurlu evsahibliyi martın 2-də keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü ilə bir daha təsdiqləndi. Tədbirdə müxtəlif ölkələrdən yüksəksəviyyəli rəsmi şəxslər iştirak etdilər. Ölkəmiz Qoşulmama Hərəkatına üçillik sədrliyi dövründəki səmərəli fəaliyyətinin bariz nümunəsini növbəti Zirvə görüşündə göstərdi.**





Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bir çox vacib məsələyə toxundu. Dövlət başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründən söz açaraq bildirdi ki, ölkəmiz sədr kimi Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi və Hərəkatın beynəlxalq arenada mövqeyinin güclənməsi üzrə səylərini bundan sonra da əsirgəməyəcək.

### Zirvə görüşü Azərbaycanın dünyada söz sahibi olduğunu bir daha göstərdi

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, 120 dövlətin birləşdiyi və bir sıra təşkilatların müşahidəçi statusunda çıxış etdiyi Qoşulmama Hərəkatına dörd il uğurla sədrlik etmək və sədrlik dövründə təşkilatın təsir dairəsini genişləndirmək, nüfuzunu yüksəltmək Prezident İlham Əliyev kimi uzaqgörən, bəşəriyyətin xoşbəxt gələcəyini düşünən siyasətçiyə xasdır.

Deputat qeyd edib ki, dövlət başçımızın təşkilata uğurlu sədrliyi üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilir və insanların sağlamlığı, rifahı naminə həyata keçirilən tədbirlər demokratik dövlətlər tərəfindən dəstəklənir. Müharibə şəraitində olmasına, pandemiyanın doğurduğu çətinliklərə baxmayaraq, ölkəmizin rəhbərinin təşəbbüsü ilə 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19 ilə mübarizəyə həsr olunmuş sammitinin keçirilməsi, bir çox ölkələrə humanitar yardım edilməsi İlham Əliyevin gərgin səyləri nəticəsində mümkün olub: "Hərəkata sədrlik dövründə Parlament Şəbəkəsinin yaradılması mühüm hadisədir və bu platformanın gələcək uğurlu perspektivlərindən xəbər verir. Hərəkatın postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşünün yenidən Bakıda keçirilməsi Prezident İlham Əliyev tərəfindən irəli sürülüb. Dövlət başçımızın görüşdəki çıxışı beynəlxalq aləmdə də geniş əks-səda yaradıb. Bu çıxışda dünyada baş verən hadisələrin, mövcud reallıqların aydın mənzərəsi verilib. Ölkəmizin rəhbəri yeni dünya düzəninin formalaşması fikrini ifadə etməklə əsas diqqəti dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinin vacibliyinə, beynəlxalq hüququn işləməməsinə, beynəlxalq təşkilatların fəaliyyətinin səmərəli olmamasına yönəldib".

Komitə sədri vurğulayıb ki, bəşəri məsələlərin həllində, yeni dünya düzənində Qoşulmama Hərəkatının fəaliyyəti əhəmiyyətlidir və vacib problemlərin həllində Hərəkatın yeri mütləq müəyyənləşdirilməlidir. Bu Hərəkatın üzv dövlətlərindən biri BMT Təhlükəsizlik Şurasında təmsil olunmalıdır. Çünki sözügedən şuranın fəaliyyəti demək olar ki, dondurulmuş vəziyyətdədir və dünyada sülhün, əmin-amanlığın, demokratiyanın bərpa olunmasında öz rolunu göstərməyə qadir deyil.

T.Rzayevin sözlərinə görə, Azərbaycan timsalında BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin 28 il ərzində yerinə yetirilməməsi, erməni təcavüzkarlarının işğal etdikləri ərazilərimizdən vaxtında çıxarılmaması buna əyani nümunədir. "Məhz buna görə də cənab İlham Əliyev BMT-də islahatların aparılmasının vacibliyini öz çıxışında bir daha qeyd etdi və təşkilatın fəaliyyətsizliyini əyani faktlarla nəzərə çatdırdı. Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbiri Azərbaycanın dünyada söz sahibi olduğunu bir daha göstərdi və bu, beynəlxalq aləmdə dövlətimizin artan nüfuzunun göstəricisidir", - deyə Tahir Rzayev bildirib.

### Azərbaycan sədrliyi dövründə gündəliyini yeni reallığa uyğunlaşdırıb

Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib ki, uğurlu siyasət nəticəsində Azərbaycanın dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlar müstəvisində aktiv fəaliyyəti ilə müşahidə olunur. Dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər.

Deputat vurğulayıb ki, hazırda ölkəmiz bir sıra beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda bir çox qərarların qəbulunda və icrasında söz sahibidir. "Bu baxımdan BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi çərçivəsində özünün ən uğurlu dövrünü yaşayır. 2019-cu ildə ölkəmiz Hərəkatın sammitinə uğurla evsahibliyi etdi və bu tədbirdə Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan öz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Belə də oldu. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra Azərbaycanın quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan etimadının və nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsinə çevrildi", - deyə deputat bildirib.

Pərvin Kərimzadə qeyd edib ki, Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, ölkəmiz çevik və səmərəli şəkildə öz sədrlik gündəliyini yeni reallığa uyğun həyata keçirdi. Bu prosesdə Azərbaycan dövlətinin və Prezident İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi mühüm rol oynadı. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, belə ağır bir problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı vacib bilən və təbliğ edən ilk ölkələrdən oldu. Qoşulmama Hərəkatının Sədri, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında təsisatın COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya baş tutdu.

Deputat qeyd edib ki, Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün keçirilməsi mühüm hadisədir: "Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Zirvə görüşündə dərinməzmunlu çıxış edərək bir çox məsələlərlə bağlı mövqeyini ifadə etdi. Dövlət başçısının dediyi kimi, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb. Dövlət başçımız çıxışı zamanı səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif edib, çünki bu problem də qlobal xarakter daşıyır. İnanırıq ki, ölkə rəhbərinin əvvəlki təklifləri dəstəkləndiyi kimi, bu təklifi də Qoşulmama Hərəkatının üzvləri tərəfindən dəstəklənəcək".

Pərvin Kərimzadə bildirib ki, Zirvə görüşünün iştirakçıları Azərbaycanın irəli sürdüyü təşəbbüsləri və Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi fəaliyyətini çox yüksək qiymətləndiriblər. Bu kimi faktlar dövlətimizin və Prezidentimizin beynəlxalq miqyasda siyasi gücünün, yüksək nüfuzunun ifadəsidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə çıxışı beynəlxalq KİV tərəfindən geniş işıqlandırılıb

**Qoşulmama Hərəkatının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Hərəkatın COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışı beynəlxalq KİV tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Pakistanın "Daily Times", "Urdu Point" saytlarında yayılan xəbərlərdə Prezident İlham Əliyevə istinadla bildirilib: "Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına güclü dəstək verir. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması təşəbbüsü ilə çıxış etdik".

ABŞ-nin "Menafn", İordaniyanın "Petra News Agency", Gürcüstanın "Kavkazc Plös" saytları, eyni zamanda Pakistanın "Daily Times", "Urdu Point" portallarında dərc olunan məlumatlarda dövlətimizin başçısının Qoşulmama Hərəkatının BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməli olması ilə bağlı fikirlərinə xüsusi diqqət yetirilib.

İordaniyanın "Petra News Agency" xəbər agentliyi Prezident İlham Əliyevin Bakı Sammitində çıxışından bu fikirləri sitat olaraq gətirib: "Qoşulmama Hərəkatının Sədri olaraq məqsədimiz ədaləti və beynəlxalq hüququ müdafiə etməkdir. Pandemiyanın başlamasından dərhal sonra COVID-19-a qarşı qlobal səyləri səfərbər etmək təşəbbüsü ilə çıxış edən məhz Qoşulmama Hərəkatı oldu".

Birləşmiş Ərəb Əmirliyinin "Emirates News Agency" xəbər agentliyində dövlətimizin başçısının "2019-cu ildə Azərbaycan Qoşulmama Hərəkatı ölkələrinin yekdil qərarı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatına sədrliyinə başladı. Sədrliyimizin müddəti yekdil qərarla daha bir il uzadıldı. Biz Azərbaycanın sədrliyinə göstərdikləri dəstəyə görə üzv dövlətlərə minnətdarıq" fikirləri oxucuların diqqətinə çatdırılıb.

Küveytin "Kuna.net" portalı Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışında söylədiyi bu fikirlərini xüsusilə önə çəkib: "Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdük. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı".

Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə çıxışı zamanı Qarabağ və postmünaqişə məsələləri barədə fikirləri də beynəlxalq KİV-in diqqətini çəkib.

İsveçrənin "Swissinfo", Pakistanın "Daily Times", Türkiyənin "Anadolu Ajansı" saytlarında yayılan xəbərlərdə diqqətə çatdırılıb ki, ki, 2020-ci ildə Azərbaycan ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa edib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü yerinə yetirib.

Pakistanın "Urdu Point", Rusiyanın "TASS", "Moskovskiy Komsomolets", "Lenta.ru", həmçinin İsveçrənin "Swissinfo", saytları Azərbaycan Prezidentin çıxışından bu sitatları gətirib: "Azərbaycan işğaldan azad olunmuş ərazilərdə öz maliyyə resursları ilə genişmiqyaslı yenidənqurma işləri aparır. Bu il biz bu məqsəd üçün ən azı 1,7 milyard ABŞ dolları məbləğində vəsait ayırmağı planlaşdırırıq".

Dövlətimizin başçısının Hərəkatın Zirvə görüşündə COVID-19-la bağlı görülən işlər barədə fikirləri də beynəlxalq media qurumlarının maraq dairəsində olub. Belə ki, BƏƏ-nin "Emirates News Agency", Pakistanın "Daily Times", "Urdu Point", "Pakistan Today", Misirin "Al-Ahram", "Youm7", Kubanın "Prensa Latina" saytlarında dərc olunan məqalələrdə bildirilib ki, Prezident İlham Əliyev çıxışında pandemiyanın "2030: Davamlı İnkişaf Məqsədləri"nin icra olunmasına mənfi təsir etdiyini, hədəflərə çatmaqda geriləmənin qarşısını almaq və 2030-cu il gündəliyinin icrasına vaxtında nail olmaq üçün qlobal səylərin gücləndirilməli olduğunu vurğulayıb. Deyib ki, bu məqsədlə BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılması təklif edilib. Dövlət başçısı qeyd edib ki, bu panel postpandemiya dövrü üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlaya bilər. Azərbaycan Prezidenti Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə çağırıb.




Pakistanın "Daily Times", ABŞ-nin "Menafn" saytları yazıb ki, Prezident İlham Əliyev COVID-19 pandemiyası dövründə olduğu kimi, Azərbaycanın Qoşulmama Hərəkatının ehtiyacı olan üzv ölkələrinə maliyyə və humanitar yardım göstərməyə davam edəcəyini bildirib.

Həmçinin Küveytin "Kuna.net", Pakistanın "Daily Times", "Urdu Point", ABŞ-nin "Menafn" portallarında dərc olunan informasiyalarda dövlətimizin başçısına istinadla qeyd edilib: "Azərbaycan əksəriyyəti bizim Qoşulmama Hərəkatı ailəsinin üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib".

Kubanın "Prensa Latina" xəbər agentliyinin yaydığı xəbərdə isə Azərbaycan Prezidentinə istinadlar edilib. "Qoşulmama Hərəkatı bütün ölkələrin peyvəndlərdən ədalətli və vahid şəkildə istifadəsini təmin etmək üçün 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında və BMT Baş Assambleyasında qəbul edilmiş iki qətnamənin təşəbbüskarı oldu".

Dövlətimizin başçısının Qoşulmama Hərəkatının Təmas Qrupunun Bakı Sammitində çıxışı zamanı toxunduğu digər məsələlər də beynəlxalq media orqanları tərəfindən geniş işıqlandırılıb.

BƏƏ-nin "Emirates News Agency" agentliyi Azərbaycan Prezidentinin bu fikrini xüsusi qeyd edib: "İqlim dəyişikliyi bəşəriyyət üçün digər bir təhdiddir və su qıtlığı, ərzaq çatışmazlığı və məcburi miqrasiya kimi ciddi problemlərə səbəb olur. İnkişaf edən kiçik ada ölkələri daha çox diqqətəlayiqdir. Çünki onlar iqlim dəyişikliyinin təsirlərinə daha həssas olduqları üçün Yer üzündən silinmək təhlükəsi ilə üzləşiblər".

İsveçrənin "Swissinfo", Türkiyənin "Anadolu Ajansı", İranın "IRNA", Gürcüstanın "Kavkazc Plös", Rusiyanın "Eurasia Daily" saytları isə Prezident İlham Əliyevin söylədiyi "Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik" fikrini vurğulayıblar.

Dövlətimizin başçısının dünya "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi olması, onun fəsadlarının dünyanın qalan hissəsində də hiss edilməsi ilə bağlı söylədikləri İordaniyanın "Petra News Agency", Türkiyənin "Anadolu Ajansı", Gürcüstanın "1tv.ge", "Nation.ge", "News-front.info", "Resonance Daily", "Geotimes.com.ge", "Kavkazc Plös", Misirin "Akhbarelyom.com", İranın "Mehr News Agency", "Fararu", "Shafaqna", "IRNA" saytlarında yayılan xəbərlərdə əsas mövzu olub.

Türkiyənin "Anadolu" agentliyi, Pakistanın "Urdu Point" saytlarında yayımlanan informasiyalarda Qoşulmama Hərəkatının Sədri, Prezident İlham Əliyevin söylədiyi "Son bir neçə onillikdə mövcud olan beynəlxalq təhlükəsizlik arxitekturası hazırda köklü dəyişikliklərlə üzləşir və multilateralizm təhlükə altındadır. Beynəlxalq hüququn norma və prinsiplərinin aşınması beynəlxalq düzəni daha da təhdid edir. Suverenliyin və ərazi bütövlüyünün pozulması, dövlətlərin daxili işlərinə müdaxilə halları daha çox müşahidə olunmaqdadır. Aparıcı beynəlxalq təşkilatların qərarları ya icra olunmur, ya da selektiv yanaşma və ikili standartlar tətbiq edilir" kimi fikirlər əsas xəbər kimi önə çıxarılıb.

Rusiyanın "TASS" agentliyi, "Qazeta" saytı, Türkiyənin "Anadolu" agentliyi, İsveçrənin "Swissinfo", BƏƏ-nin "Emirates News Agency", Pakistanın "Daily Times", "Urdu Point", İordaniyanın "Petra News Agency" və digər saytlar Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasında islahatların aparılması ilə bağlı çağırışlarından yazıblar. Məqalələrdə qeyd edilib ki, Azərbaycan Prezidenti bununla bağlı bildirib: "BMT Təhlükəsizlik Şurası bu gün səmərəli deyil. Məsələn, Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə günün içində icra olunub. BMT Təhlükəsizlik Şurası keçmişi xatırladır və indiki reallığı əks etdirmir. Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir ki, orada daha çox ölkə təmsil olunsun və coğrafi baxımdan daha ədalətli olsun. Bir daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə növbəli şəkildə bu yerə sahib olmalıdır. Mən Qoşulmama Hərəkatına üzv ölkələri bu məsələ ilə bağlı məsləhətləşmələrə başlamağa və öz fikirlərini BMT-nin müvafiq komitəsinə təqdim etməyə çağırıram".

Pakistanın "Daily Times", "Urdu Point" saytları dövlətimizin başçısının "Biz Təhlükəsizlik Şurasında Afrikaya da daimi yerlərin verilməsi fikrini dəstəkləyirik" sözlərini manşetə çıxarıblar.

BƏƏ-nin "Emirates News Agency", Pakistanın "Daily Times", "Urdu Point", Kubanın "Prensa Latina" portalları Azərbaycan Prezidentinin suverenliyə, milli sahibliyə, bərabərliyə və qarşılıqlı mənafeyə hörmət prinsiplərini rəhbər tutan Cənub-Cənub əməkdaşlığının daha da gücləndirilməli olduğu, həmin gündəliyin Cənub ölkələrinin özləri tərəfindən öz milli ehtiyac və prioritetlərinə uyğun olaraq təşkil edildiyi, bunun kənardan məcburi qaydada qoyulmuş bir gündəlik olmadığı ilə bağlı fikirlərini təqdim edib.

Misirin "Al-Ahram", ABŞ-nin "Menafn", BƏƏ-nin "Emirates News Agency", Pakistanın "Urdu Point", Küveytin "Kuna.net", Rusiyanın "TASS" saytları oxucularının diqqətini Prezident İlham Əliyevin iki çağırışına çəkiblər. Diqqətə çatdırılıb ki, bunlar Afrikanın və inkişaf edən kiçik ada dövlətlərinin pandemiyadan sonrakı bərpasını dəstəkləməkdir. Azərbaycan Prezidenti məmnuniyyətlə elan edib ki, Azərbaycan ilk donor ölkə kimi hər iki qlobal çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırır.

Pakistanın "Daily Times" saytı isə dövlətimizin başçısının bu fikrini əsas xəbər kimi yayıb: "Məqsədimiz institusional davamlılıq yaratmaq və Azərbaycandan sonra sədrliyi təhvil alacaq üzvlərə uğurlu miras qoymaqdır".

Azərbaycan Prezidentinin "Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq" fikirləri isə İsveçrənin "Swissinfo", Türkiyənin "Anadolu Ajansı", "Yeni Şafak", "Anadolu Ajansı", "Sabah", "Hürriyet", "Son Dakika", "ODA TV", "Yeni Akit", "Milat Gazetesi", "Beyaz Gazete", İranın "Mehr News Agency", Gürcüstanın "Kavkazc Plös", Rusiyanın "Eurasia Daily" saytları tərəfindən geniş işıqlandırılıb.

Rusiyanın "TASS", "Eurasia Daily" saytları dövlətimizin başçısına istinadla yazıb: "Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri və minatəmizləmə fəaliyyəti arasında birbaşa əlaqə görür, çünki minalar yenidənqurma prosesini və keçmiş məcburi köçkünlərin geri dönməsini ləngidir. Azərbaycan minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Biz Qoşulmama Hərəkatına üzv olan ölkələri bu təşəbbüsü dəstəkləməyə dəvət edirik. Qoşulmama Hərəkatına üzv ölkələrin bir çoxunun mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr sırasında olduğunu nəzərə alaraq, mən səsimizi qlobal miqyasda eşitdirmək üçün Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılmasını təklif etmək istəyirəm".

Kubanın "Juventud Rebelde", "Escambray", "Radio Reloj" saytlarında dərc olunan məqalələrdə Azərbaycanın Hərəkata sədrlik müddətində uğurlu iş apardığı, buna görə də mandatının daha bir il uzadılması barədə qərar qəbul edildiyi diqqətə çatdırılıb. Eyni zamanda Azərbaycanın paytaxtı Bakıda keçirilən Zirvə toplantısının Hərəkatın güclənməsinə töhfə verən mühüm tədbir olduğu bildirilib. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının ən çox inkişaf etmiş və böyük potensiala malik ölkələrinin imkanları daha zəif olan ölkələrə kömək etmək üçün yardım fondu yaratmaq barədə təklifi və Azərbaycan hökumətinin bu fonda ilkin olaraq 1 milyon ABŞ dolları məbləğində vəsait ayırması xüsusi vurğulanıb.

Venesuelanın "El Luchador", "La Iguana", "Telesur TV", "Ultimas Noticias", "Ciudad Caracas" saytları da Azərbaycan Prezidentinin Zirvə görüşündə toxunduğu müxtəlif məsələlər barədə geniş informasiyalar yayıblar.

## *İordaniyalı jurnalist:* "Məscidlərdə heyvan saxlamaq müsəlmanlara qarşı hörmətsizlikdir"

**"Mən burada məscidlərin, islam dininə aid ibadət yerlərinin dağıdıldığının şahidi oldum. Düşünürəm ki, bu, heç də yaxşı hərəkət deyil və müsəlmanlara qaşı edilən hörmətsizlikdir. Bu təhqirlər, eyni zamanda ibadət yerlərində donuz və digər heyvanların saxlanılması dinlərarası ədavət yaranmasına yol verir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Füzulidə səfərdə olan iordaniyalı jurnalist Fayez Raya Satea Əl-Aqil söyləyib.

Müsahib qeyd edib ki, səfər zamanı bir çox dağıdılmış ərazi, eyni zamanda quruculuq işləri ilə tanış olublar. "Burada gedən bərpa və quruculuq işlərinin şahidi oldum. Məsciddə olarkən "Qurani-Kərim"dən müxtəlif ayələr oxudum. İnanıram ki, hər şey yaxşı olacaq", - deyə jurnalist bildirib.

## *Samira FRİMŞ:* "Azərbaycan azad edilmiş ərazilərdə çox böyük və əhəmiyyətli işlər görür"

**"Mən azad edilmiş ərazilərə ilk dəfədir gəlirəm. Lakin Azərbaycana beşinci səfərimdir. Həmçinin Bakıya, Qubaya və Qəbələyə də səfər etmişəm. Azərbaycanı çox bəyənirəm".**

Bunu AZƏRTAC-a Füzulidə səfərdə olan Əlcəzair əsilli küveytli jurnalist Samira Frimş söyləyib.



Bu ərazilərin işğal altında olduğunu vurğulayan Samira Frimş deyib: "Artıq Azərbaycan işğal altında olmuş əraziləri bərpa edir. Mən bu torpaqların azad edildiyini gördüyüm üçün çox şadam. Bu ərazilərdə gördüklərim bütün dünya və azadlıq üçün böyük işdir".

Azad edilmiş ərazilərdə aparılan bərpa işlərini və həyata keçirilən layihələrin onu məmnun etdiyini söyləyən jurnalist deyib ki, qısa müddətdə tikilən Füzuli Beynəlxalq Hava Limanı çox gözəldir. "Bu ərazilərdə aparılan bərpa işləri Azərbaycanın necə böyük layihələr həyata keçirdiyinin sübutudur. Azərbaycan çox böyük və əhəmiyyətli addımlar atır. Mən bu münasibətlə Azərbaycanı təbrik edirəm", - deyə jurnalist qeyd edib.

## *Kolumbiyalı jurnalist:* "Təkcə şəhərlər, kəndlər dağıdılmayıb, ağaclar, yaşıllıqlar da məhv edilib"

**"Bu gün burada gördüklərimiz bizi məyus edir. Dağıntılar həddən artıq çoxdur. Təkcə şəhərlər, kəndlər dağıdılmayıb, ağaclar, yaşıllıqlar da məhv edilib".**

Bunu AZƏRTAC-a Ermənistan işğalından azad olunan Füzuliyə səfər edən Kolumbiyanın RCN televiziya kanalının jurnalisti Lauryen Calderin deyib.



"Mən təsəvvür edə bilmirəm ki, dağılmış şəhərləri yenidən tikmək üçün nə qədər zaman və səbir lazımdır. Amma bir tərəfdə dağıntıları görürüksə, digər tərəfdə quruculuq işlərinin şahidi oluruq. Bunlar ümidvericidir. Əgər bu yerlərdə müharibədən dərhal sonra tikinti-quruculuq işləri başlayıbsa, deməli, buraya tezliklə həyat qayıdacaq. Burada yenidən ağaclar, yaşıllıqlar olacaq, insanlar geri dönəcək, sevincli anlar yenidən yaşanacaq", - deyə o bildirib.

# Xarici jurnalistlər Gəncədə erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsini anıblar

**Bir qrup xarici media nümayəndəsi Gəncə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan dinc insanların xatirəsini anıblar.**





AZƏRTAC xəbər verir ki, Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşünü işıqlandırmaq üçün ölkəmizə gəlmiş media nümayəndələri Vətən müharibəsi zamanı erməni hərbi birləşmələri tərəfindən Gəncədə törədilən terror hadisəsinin baş verdiyi ərazini ziyarət ediblər.

Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən uzaq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla, 26 mülki şəxs həlak olub, 175 nəfər yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# Xarici media nümayəndələri Füzulidə erməni barbarlığının şahidi olublar









**Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşünü işıqlandırmaq üçün ölkəmizə gəlmiş media nümayəndələri Ermənistan işğalından azad olunmuş Füzuli rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Araz İmanov Füzuli Beynəlxalq Hava Limanına gələn xarici media nümayəndələrinə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, infrastruktur layihələri barədə məlumat verib. Bildirilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan tərəfindən irimiqyaslı layihələr reallaşdırılır, tikinti-quruculuq işləri aparılır. Belə layihələrdən biri də Füzuli, Zəngilan və Laçın hava limanlarının inşasıdır. Füzuli və Zəngilan beynəlxalq hava limanları artıq istifadəyə verilib. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun həyata keçirilib.

Səfər iştirakçıları sonra Merdinli kəndində erməni barbarlığının izləri ilə tanış olublar. Qonaqlara 30 illik işğal dövründə ermənilərin ölkəmizə qarşı törətdikləri cinayətlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, erməni vandalları işğal etdikləri digər şəhər və kəndlər kimi, Merdinli kəndini də talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı nifrətini göstərib. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Media nümayəndələrinə həmçinin ərazilərin Ermənistan tərəfindən minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib.

Xarici jurnalistlər sonra Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. Bildirilib ki, 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, yaxud suya ehtiyac olmayan vaxtlarda anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

Qonaqlar Füzuli şəhərinin mərkəzində də erməni vəhşiliyinin şahidi olublar. Diqqətə çatdırılıb ki, şəhər tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Şəhərin təbiəti, ağaclar və yaşıllıqlar, su mənbələri, kəhriz və bulaqlar məhv edilib. Media nümayəndələrinə, həmçinin Füzuli şəhərinin bərpası istiqamətində görüləcək işlər barədə məlumat verilib.

Füzulidə erməni barbarlığı ilə tanış olan qonaqlar Şuşa şəhərinə yola düşüblər.





# Özünüməşğulluq yeni biznes mühitinin formalaşmasına dövlət dəstəyidir



Yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq probleminin həllinə dəstək dövlətin əsas prioritet fəaliyyət sahələrindən biridir. Yeni istehsal müəssisələri, regionlarda yaradılan sənaye məhəllələri vətəndaşlarımızın işlə təminatında mühüm rol oynayır. Bununla belə, işə ehtiyacı olanların, xüsusilə aztəminatlı ailələrin işlə təmin edilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramının da payı az deyil.

Xəbər verildiyi kimi, bu günlər Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Dövlət Məşğulluq Agentliyinin birgə dəstəyi ilə həyata keçirilən "Səyyar kofe evləri" layihəsinin iştirakçılarına aktivlər təqdim edilib. Layihə çərçivəsində Bakı şəhəri və Abşeron rayonu üzrə barista sahəsində çalışmaq istəyən, 35 yaşadək 20 nəfər işsiz şəxsə səyyar kofe satışı istiqaməti üzrə kiçik bizneslərini qurmaları üçün lazımi avadanlıqlar verilib. Özünüməşğulluq proqramına dəstək məqsədi daşıyan layihə çərçivəsində onlar kofe treyleri, qəhvə maşını və qəhvə üyütmə maşını ilə təmin olunublar.

Özünüməşğulluq proqramının fəaliyyət sahələri yeni layihələr əsasında daha da genişlənir. "Səyyar kofe evləri" layihəsi də yeni özünüməşğulluq istiqamətini formalaşdırır və bu sahədə çalışmaq istəyən gənclərin həmin istiqamətdə kiçik biznesə çıxışına dəstək məqsədi daşıyır. Layihə iştirakçılarının seçimi zamanı sosial cəhətdən həssas qruplara aid olan, barista sahəsində müəyyən təcrübəyə malik şəxslərə üstünlük verilib. Benefisiarlar üçün "Lavazza Azerbaijan" şirkəti ilə əməkdaşlıq çərçivəsində peşə təlimləri, KOBİA tərəfindən isə biznes təlimləri təşkil olunub. Həmin gənclərin səyyar kofe satışı üzrə fəaliyyəti üçün ərazilərin müəyyənləşdirilməsi və xüsusi icazələrin alınması da təmin edilib.

Həyata keçirilən layihə sözün həqiqi mənasında rezonans doğurub. Özünüməşğulluq proqramına qoşulmaq istəyən şəxslər layihədə iştirak etmək niyyətində olduqlarını bildirdilər. Çoxsaylı müraciətləri nəzərə alıb Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi ilə əlaqə saxladıq, oxucularımızı maraqlandıran suallara aydınlıq gətirmələrini xahiş etdik.

Bildirdilər ki, özünüməşğulluq - şəxsin müstəqil surətdə, yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir. Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Özünüməşğulluq proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən kiçik biznesə başlamaq üçün istəyi, minimum potensialı, bacarıqları, təsəvvürü olan əmək qabiliyyətli, həmçinin məhdud əmək qabiliyyətli olan işsiz və işaxtaran şəxslərə ailə təsərrüfatlarını, kiçik bizneslərini yaratmaları üçün dövlət vəsaiti hesabına birbaşa mal və materiallar formasında aktivlər verilir. Nəzərə çatdırdılar ki, özünüməşğulluq proqramına işsiz kimi qeydiyyata alınmış şəxslər (işsizlikdən sığorta ödənişi alan işsiz şəxslər istisna olunmaqla), eyni zamanda mülkiyyətində kənd təsərrüfatına yararlı pay torpağı olub, digər məşğulluğu olmayan, işaxtaran kimi qeydiyyata alınmış şəxslər müraciət edə bilərlər. Eyni zamanda onu da vurğuladılar ki, proqramın icrası zamanı şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, ünvanlı dövlət sosial yardımı alan, əlilliyi olan, habelə 18 yaşadək əlilliyi olan, bir ildən artıq işsiz kimi qeydiyyata alınan, pensiya yaşına iki ildən az qalan və cəzaçəkmə müəssisəsindən azad edilmiş işsiz şəxslər üstün hüquqa malikdirlər.

Özünüməşğulluğun təşkili aşağıdakı mərhələləri əhatə edir:

- özünüməşğulluğun təşkili ilə bağlı məsləhətlərin və məlumatların verilməsi;
- əmək bazarının təhlili əsasında iqtisadiyyatın sahələri üzrə özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilməsi;
- özünüməşğulluğun təşkili üçün biznes-planın hazırlanmasına köməklik göstərilməsi, o cümlədən təlimlərin keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi;
- seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə natura şəklində material, avadanlıq və digər əmlakın (əmlak) 1 (bir) il müddətinə müqavilə əsasında verilməsi;
- özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin 1 (bir) il müddətində dövri monitorinqi aparılır.

Sonda xatırlatdılar ki, postmüharibə dövründə şəhid ailə üzvləri, müharibə iştirakçısı və onların yaxınlarından ibarət 16,9 min şəxsin məşğulluğuna dəstək göstərilib. Onlardan 9,6 min şəxs özünüməşğulluq proqramı ilə əhatə olunub. Seçdikləri iqtisadi fəaliyyət növləri üzrə həmin şəxslərin kiçik ailə təsərrüfat və müəssisələrini qurmaları üçün proqram əsasında aktivlərlə təminatı işləri aparılır. İlk növbədə layihə çərçivəsində işğaldan azad olunmuş ərazilərə qayıdan vətəndaşlarımızın əmək fəalliyyətlərini qurmaları üçün lazımi dəstək verilir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Bir yumruq, ürək, can



# Nüfuzlu "Daily Sabah" nəşri Azərbaycan könüllülərinin Türkiyədəki fəaliyyətindən yazıb

**Türkiyə mediası Azərbaycan gənclərinin qardaş ölkədə baş verən təbii fəlakət bölgələrindəki könüllü fəaliyyətinə dair informasiyalara geniş yer ayırmağa davam edir.**




Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, nüfuzlu "Daily Sabah" nəşrində ingilis dilində yayımlanan "Azərbaycandan olan könüllülər Türkiyəyə zəlzələdən xilas olmaqda köməklik edir" sərlövhəli məqalədə Türkiyənin ən yaxın müttəfiqlərindən biri olan Azərbaycanın faciədən sonra həm yardım, həm də axtarış-xilasetmə qrupları göndərərək ilk beynəlxalq dəstəkçilərdən biri olduğu xüsusi vurğulanıb.

Məqalədə qeyd edilib ki, Azərbaycandan olan ekipajlar axtarış-xilasetmə işlərini yekunlaşdırıb, lakin sağ qalanların yaralarını, xüsusən də psixoloji təsirlərini sağaltmaq üçün azərbaycanlı gənclər Türkiyədə könüllü kimi fəaliyyətlərini davam etdirirlər.

Məqalədə həmçinin zəlzələlərin episentri olan Kahramanmaraşdakı çadır şəhərciyində fəaliyyət göstərən Azərbaycandan olan könüllü gənclərin fikirlərinə geniş yer verilib. "Prezidentimizin çağırışı ilə 100 könüllüdən ibarət nümayəndə heyəti olaraq gəlmişik. Biz burada, Kahramanmaraşda, Adıyamanda və zəlzələdən zərər çəkən digər ərazilərdə könüllü olaraq fəaliyyətimizə davam etdiririk. Biz zəlzələdən əziyyət çəkən insanlara kömək edir, təbii fəlakətdən zərər çəkmiş uşaqlara qayğı göstəririk. Uşaqlar üçün əyləncəli tədbirlər təşkil edirik ki, onlarda travma yaratmış bu fəlakəti unutsunlar. Zəlzələlərlə bağlı xatirələri onların zehnindən tamamilə silə bilmərik, lakin onların yaşadıqlarının təsirini ən azından azalda bilərik. Biz onlara bu şokun öhdəsindən gəlməkdə kömək etməyə çalışırıq", - deyə gənc könüllü Anar Əzizov "Daily Sabah"a bildirib.

Xəbərdə digər könüllümüz Üzeyir Mustafayevin qardaş Türkiyənin yanında olduqlarını bildirdiyi qeyd edilib. "Prezident İlham Əliyev Türkiyənin Bakıdakı səfirinə dedi ki, biz bir yumruq, bir ürək, bir canıq və bu, bizim şüarımıza çevrildi. Biz səninləyik, Türkiyə", - deyə Üzeyir Mustafayevin fikirləri ilə nüfuzlu "Daily Sabah" nəşri məqaləni sonlandırıb.

# *Azərbaycanlı həkim:* "Kahramanmaraşda yerli sakinlər bizi çox böyük coşqu ilə qarşılayırdılar..."

## Səkkiz çadırdan ibarət könüllülərin tibbi hospitalı həyatın ağır sınağı ilə üzləşən sakinlərə xidmət edir

**"Azərbaycan Könüllü Həkimlər Assosiasiyası öz ətrafında 350 nəfər könüllü həkimi birləşdirir. Postmüharibə dövründə 11 min hərbçiyə, 3500-ə yaxın şəhid ailə üzvü və qazilərə stomatoloji və tibbi xidmət göstərilib. Vətən müharibəsindən sonra həmin kateqoriyaya məxsus olanlar üzərində 250-yə yaxın cərrahi əməliyyat aparılıb".**







Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının (AKHA) sədr müavini Hüseyn Hüseynzadə bu barədə AZƏRTAC-a deyib. O, Azərbaycan Tibb Universitetinin məzunudur, ağız və üz-çənə cərrahiyyəsi kafedrasının aspiranturasını bitirib, tibb üzrə fəlsəfə doktorudur.

Sədr müavininin dediyinə görə, postmüharibə dövründə Cəbrayıl, Şuşa, Laçın, Zəngilan, Qubadlı və Şuşada tibb məntəqələri fəaliyyət göstərir və həkimlər növbəli şəkildə həmin məntəqələrdə çalışırlar. Bundan başqa, assosiasiyanın könüllü həkimləri Şuşa-Laçın yolunda keçirilən ekoloji fəalların etiraz aksiyasının ilk günündən iştirakçıların sağlamlığı keşiyində dayanırlar.

"Türkiyədə baş verən zəlzələdən zərərçəkənlərə göstərilən tibb yardım assosiasiyanın ilk beynəlxalq layihəsi oldu", - deyə Hüseyn Hüseynzadə söhbətini davam etdirir: "Fevralın 11-də Fövqəladə Hallar Nazirliyinin tibbi heyəti ilə birlikdə ümumi cərrah, anestezioloq-reanimotoloq, travmatoloq, üz-çənə cərrahı, stomatoloq, terapevt və cihazların quraşdırlması üçün tibbi texniklərdən ibarət 15 nəfərlik heyətlə Kahramanmaraş şəhərində təbii fəlakət nəticəsində zərərçəkənlərə tibbi yardım göstərməyə yollandıq. Yük təyyarəsi ilə süni tənəffüs aparatları, cərrahi masalar, cərrahi işıqlar, bir sözlə, bir klinikanın tam normal fəaliyyət göstərməsi üçün lazım olan bütün tibbi avadanlıqlar aparmışdıq. Bizdən əvvəl orada Fövqəladə Hallar Nazirliyinin zərərçəkənlərə tibbi yardım göstərmək üçün bir hospitalı fəaliyyət göstərirdi. Şəhərin bələdiyyə stadionunda 8 çadırdan ibarət ikinci tibbi hospital açdıq. Hospitalda 2 cərrahiyyə masasından ibarət əməliyyat bloku, 8 çarpayılıq reanimasiya, intensiv palata və 8 adi palatada ambulator şöbə həyatın ağır sınağı ilə üzləşən sakinlərə xidmət edir".

"Qardaş ölkədə bütöv küçə və prospektlərin yerləyeksan olduğu, ev və məhəllələrin dağıntılar altında qaldığını izləmək çox ağır idi. Həmin çətin günlər sanki bizi bir az da doğmalaşdırdı", - deyə həkim bildirir: "Dəhşətli zəlzələdən sonra əhali həyəcan, təlaş və qorxu içində idi. İlk xəstəmiz təxminən 30 yaşlı serebral iflic xəstəsi olan bir qadın oldu. O, zəlzələ günü dağıntılar altından çıxmağa çalışarkən ayağından zədə almışdı və ağrıdan əziyyət çəkir, yeriyə bilmirdi. Bizim açdığımız hospitalda travmatoloqlar anesteziya altında ona ilk yardım göstərdilər, ayağını müalicə edərək sağaltdılar. Sərbəst hərəkət problemi olduğuna görə əlil arabası ilə təmin olunması xanımın ən böyük arzusu idi. Assosiasiyanın sədri Oqtay Mehdiyev Türkiyədə təşkilatımızın könüllü üzvləri ilə əlaqə saxlayıb onlar vasitəsilə əlil arabası aldıq və xanımın yaşadığı kəndə gedərək arabanı ona təqdim etdik. Biz onun yaşadığı kənddə ölkəmizin adından zəlzələdə həlak olanların xatirəsinə 350-400 nəfərlik ehsan süfrəsi açdıq. Həmin kənddə sakinlərlə görüşümüz, onların bizə münasibəti çox duyğusal hisslər yaratdı. Yerli əhali bizə özlərinin ən yaxın adamları, xilaskarlar kimi baxırdılar", - deyə assosiasiyanın sədr müavini xatırlayır.

Hüseyn həkim daha bir hadisəni yada salıb: "Təbii fəlakətdən şoka düşən ailə xilas olmaq istəyərkən 18 yaşında bir qız avtomobil qəzasına düşmüş, üz nahiyəsi partlamışdı. Bizimlə gedən həkimlər onun üzündə uğurlu cərrahiyyə əməliyyatı apardılar və səfərimizin son günlərində qızın üzünə qoyulan tikişlər söküldü. Xanım həkimlərdən son dərəcə razılıq və minnətdarlıq hissi ilə ayrıldı. Bizə ən çox xoş gələn türk qardaşlarımızın, əhalinin Azərbaycandan olanlara böyük ümidlə yanaşması idi. Azərbaycan bayrağı görəndə çox böyük qürur hissi ilə bizə yaxınlaşır, talelərindən, düçar olduqları fəlakətdən danışır və dərdlərini bölüşürdülər. Kahramanmaraşda demək olar ki, hər addımda bunu hiss edirdik və əlbəttə, bu, bizi də qürurlandırırdı. Türkiyənin televiziya kanalları, ayrı-ayrı jurnalistləri açdığımız hospitala gələrək fəaliyyətimiz haqqında süjetlər hazırladılar".

Həmsöhbətimiz deyib ki, Azərbaycandan gedən xilasedicilərdən birinin ayağı dağıntıları təmizləyərkən beton düşməsi səbəbindən sınmışdı: "Travmatoloq Cavid Musazadə onu müayinə edərək əməliyyatsız sağaltmağı öhdəsinə götürdü. Həkim onu gipslə müalicə etdi və bir neçə gün palatada hərəkətsiz saxladıq. İndi o, artıq Türkiyədən qayıdıb və ayağı ilə bağlı narahatlıqlar da arxada qalıb. Həmin günlərdə şəhərdə yerli sakinlərdən biri ilə rastlaşdıq. Bizim Azərbaycandan gəldiyimizi bilib çox sevindi. Onun gəlini azərbaycanlı idi və zəlzələdən sonra panik atak keçirmişdi. Gəlin gecələr palatadan bayıra çıxaraq ağlayır və çox narahat hisslər keçirirdi. Həkimlər zəng edib zərərçəkənlə danışdılar. O, bir neçə gün dalbadal müalicə üçün hospitala gəldi, psixoloqlar onunla 4-5 seans müalicəvi prosedurlar aparandan sonra psixoloji vəziyyətində stabillik yarandı. Onun həkimlərə ünvanladığı təşəkkür videosunu əziz bir xatirə kimi saxlayırıq. Diş ağrısından şikayətlənən uşaqlar var idi, onlara tibbi xidmət göstərərək ağrıların sovuşmasına yardımçı olduq. Yadımdadır ki, diş ağrılarından beş-altı gecə yata bilməyən Osman adlı bir uşağa ağrıyan dişlərini müayinə edərək dərman qoydum. Səhəri gün atası zəng edərək oğlunun həmin gecə rahat yatdığına görə minnətdarlıq etdi. Kahramanmaraşda səhərlər havanın hərarəti müsbət 7-8 dərəcə olsa da, axşamlar mənfi 5 dərəcəyə düşürdü. Hava şəraiti soyuq olduğuna görə müraciətlərin çoxu soyuqdəymə ilə, bir də daha çox ayaq, qol sınığı, ağıl dişində ağrılar və üzdə travmalarla əlaqədar idi".

Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının xətti ilə Kahramanmaraş şəhərində zəlzələdən zərərçəkənlərə on gün ərzində fasiləsiz yardım edilib. Gün ərzində minimum 60-70, bəzi günlərdə isə 120-150 zərərçəkənə tibbi xidmət göstərilib. On gündən sonra 10 nəfərlik heyət geri qayıtsa da, onları başqa həkim briqadası əvəz edib. Şəhərdə yaradılan hospital hazırda da oradadır və martın axırlarınadək qardaş ölkədə fəaliyyət göstərəcək.

# Qərbi Azərbaycandan olan soydaşlarımızın tarixi torpaqlarına qayıtmaları təmin edilməlidir

## Bu, təhlükəsiz və ləyaqətli şəkildə baş tutmalıdır

**Qərbi Azərbaycan İcmasının indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə cari ilin əvvəllərində ictimaiyyətə təqdim etdiyi Qayıdış Konsepsiyası ölkə əhalisində geniş rezonans doğurmuşdur.**

Qərbi Azərbaycana Qayıdış Konsepsiyası ilə yaxından tanış olanlar düşünürlər ki, bu, gerçəkləşəcəkdir. Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.

Azərbaycan xalqının təxminən son otuzillik tarixinin elə bir səhifəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. Ümumiyyətlə, ölkəmizdə azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və deportasiya məsələlərinin ətraflı şəkildə öyrənilməsi və tədqiqi, onun xalqımıza və dünya xalqlarına çatdırılması sahəsində iş yalnız Ulu Öndərin imzaladığı fərmanlardan sonra sistemli şəkil almış və ilbəil daha da mütəşəkkil surətdə təşkil olunmuşdur. Zəngin dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevin bu siyasi kursu 19 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyası ilə əlaqədar istər fərdi qaydada, istər kollektiv şəkildə atılan ciddi addımlara dövlət dəstəyi getdikcə artırılır. Qərbi Azərbaycan həqiqətləri ilə bağlı araşdırmaların yeni yanaşmalarla aparılması gündəmdədir. Sanballı tədqiqatlarla bərabər, həm də vaxtilə yazılmış kitabların tarixi reallıqlara uyğun yenilənməsi nəzərdə tutulur. Bu məqsədlə ənənəvi beynəlxalq elmi konfransların təşkilinə də üstünlük verilir ki, mövzu daim özünün strateji əhəmiyyətini saxlaya bilsin.

Xatırladaq ki, icmanın beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanan, ədalətin və sülhün bərqərar olunmasına xidmət edən mövqeyini tərəqqipərvər dünya ictimaiyyəti də dəstəkləyir. Qürurverici haldır ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Müraciətin belə bir mötəbər qurum tərəfindən dəstəklənməsi və yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur.

İnsanlar boya-başa çatdıqları doğma yurdlarına, kəndlərinə qayıtmağı özlərinə borc bilirlər və bu həqiqətin gec-tez reallaşacağına inanırlar. Bu inam onlarda ötən il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə görüşü zamanı bir daha gücləndi. Azərbaycan Prezidentinin çıxışının sonunda qətiyyətlə "Gün gələcək Qərbi azərbaycanlılar tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar" deməsi bu inamı qat-qat artırıb. Bunu Sosial Tədqiqatlar Mərkəzinin ölkəmizdə yaşı 18-24 arasında olanlar arasında keçirdiyi sorğudan da görmək olar. Sorğunun nəticələrinə görə, yaşı 18-24 arasında olanların 84 faizdən çoxu Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanır. İctimai rəy sorğusunda respondentlərə "Prezident Qərbi Azərbaycana (İrəvan, Zəngəzur və Göyçə mahalına) qayıdışla bağlı yeni hədəfləri elan etdi. Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanırsınız?" sualı ünvanlanıb. Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Ümumi nəticələr insanların 74,6 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inandıqlarını göstərib. Sorğu nəticəsini gender aspektinə görə təhlil etdikdə kişilərin 79 faizi, qadınların isə 71 faizi qayıdışın baş tutacağına qəti şəkildə əmin olduqlarını söyləyiblər. Hər iki qrupun tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanması bu istiqamətdəki dinamikanın müsbət seyri baxımından əhəmiyyətlidir.



Milli Məclisin deputatı Sahib Alıyev bu barədə müxbirimizə açıqlamasında demişdir ki, Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən sorğu zamanı rəyi öyrənilənlərin dörddəüçü bunu mümkün sayır. Onların az qala yarısı, 46,5 faizi isə tam əmindir ki, öz yurd yerlərinə dönəcəklər: "Bu əminlik ilk növbədə Müzəffər Ali Baş Komandanımızın ortaya qoyduğu iradədən və dövlətimizin qüdrətindən irəli gəlir. Sorğunun nəticələri içərisində ən önəmlisi yaşı 18-24 arasında olanların 84 faizinin Qərbi Azərbaycana qayıdışın baş tutacağına inanmasıdır. Bu rəqəm istər-istəməz Münhen Konfransında Prezident İlham Əliyevin 44 günlük savaşın aparıcı qüvvəsi olan həmin nəslin təmsilçiləri haqda dediklərini yada salır: "Cavan olduqları və Ermənistan o torpaqları işğal etdikdə hələ anadan olmadıqları üçün heç zaman görmədikləri torpaqlara qayıdan və oraları işğaldan azad edən bir nəsil yetişdirirdik. Bəli, bu sorğu həm də Azərbaycanda tarixi ədalətsizliklə nəinki barışmayan, onun nəticələrini də aradan qaldırmağa hazır olan bir nəslin yetişdiyini təsdiqləyir. Üzümü onlara tutub deyirəm ki, Qərbi Azərbaycanda görüşənədək!".

Görünən odur ki, milyonların istəyindən xəbər verən Qayıdış Konsepsiyası tədricən həyatın reallığına çevrilir. İllərdir Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımız yurd həsrəti ilə yaşayır, İrəvana, Amasiyaya, Göyçə mahalına, Zəngəzura, Dərələyəzə və digər şəhər və kəndlərə qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## *Ekoaksiya iştirakçılarının tələbi dəyişməz qalır:* Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılsın!

**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 84 gündür davam edir.**



AZƏRTAC xəbər verir ki, havanın şaxtalı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər.

# Avtomobillərin maneəsiz keçidi təmin edilib





Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

Laçından Xankəndiyə və əks istiqamətdə Rusiya sülhməramlılarına məxsus 23 təminat-təchizat, tibbi və minik avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb. Beləliklə, gün ərzində aksiya ərazisindən keçən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 50-yə çatıb.

* * *

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

Xankəndidən Laçın istiqamətinə gedən Rusiya sülhməramlılarına məxsus 21 avtomobilin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb. Bundan əlavə, sülhməramlılara məxsus altı təminat-təchizat avtomobili Xankəndiyə gedib.

* * *

Ekoaksiyanın iştirakçıları martın 4-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus iki minik avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

Bu, bir daha Laçın-Xankəndi yolunda humanitar məqsədli avtomobillərin keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

***AZƏRTAC***

# İŞİMİZ, GÜZƏRANIMIZ



## Yurd yeri həm də yollardan başlayır

**Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirmə və tikinti işlərinə 2021-ci il fevralın 14-də başlanılıb. Tikinti işləri 3 mərhələdə aparılır. Paralel olaraq ərazi minalardan təmizlənir. Məlumat üçün bildirək ki, dəmir yolunun uzunluğu ox üzrə 110,4, yan yollarla birlikdə 140,6 kilometrdir.**

"Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, Horadiz-Ağbənd dəmir yolunun birinci mərhələsi 30 kilometrlik ərazidə aparılmaqla Horadiz, Mərcanlı, Mahmudlu və Soltanlı stansiyalarını əhatə edir. Hazırda burada layihədə nəzərdə tutulan işlər 90 faiz tamamlanıb. İkinci mərhələ Soltanlı, Qumlaq, Həkəri və Mincivan stansiyalarını əhatə edir. QSC tərəfindən 30 kilometrdən 85 kilometrə qədərki ərazidə işlərin 35 faizi uğurla başa çatdırılıb. Mincivandan başlayaraq Bartaz-Ağbənd stansiyalarını əhatə edəcək sonuncu mərhələdə isə işlərin il ərzində yekunlaşdırılması nəzərdə tutulur.

Layihəyə əsasən, yol 9 stansiyanı - Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbəndi əhatə edir. Yolboyu 469 mühəndis qurğusu - 41 körpü, 22 avtomobil keçidi, 3 tunel, 2 qalereya, 4 heyvan keçidi, 253 suötürücü boru və 144 ehtiyat keçidi, 70 yoldəyişən, 110,4 kilometr rabitə və işarəvermə sisteminin tikilib təhvil verilməsi planlaşdırılıb.

Horadiz-Ağbənd dəmir yolu xəttinin Həkəri çayı üzərindən keçən hissəsində uzunluğu 418 metr olan 13 aşırımlı körpü Azərbaycanda ən uzun dəmir yolu körpüsü olacaq. Layihənin tərkib hissəsinə daxil olan bu körpü "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əhəmiyyətini də artıracaq.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumatda isə bildirilir ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan, uzunluğu 123,6 kilometr olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi 73 faiz yerinə yetirilib. Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəli olaraq beynəlxalq magistral normalara uyğun tikilir. Yolun ilk 77,5 kilometrlik hissəsi 6, qalan 46,1 kilometrlik hissəsi 4 hərəkət zolaqlıdır. Hərəkət zolaqlarına uyğun yol yatağının eni müvafiq olaraq 29,5 və 21,5 metr təşkil edir.

Hazırda yolboyu ümumi uzunluğu 6 kilometr olan və şərti T1, T2 və T3 adlandırılan 3 avtomobil tuneli tikilir. Ortalama uzunluğu 1020 metr olan T1 və ortalama uzunluğu 1822 metrlik T2 tunelləri üzrə qazma işləri, beton püskürtmə və kəmər beton işləri, eyni zamanda ortalama uzunluğu 3170 metr olan T3 tunelinin sol istiqaməti üzrə qazma işləri, həmçinin beton püskürtmə və kəmər beton işləri yekunlaşıb. Sağ istiqamət üzrə isə işlər yekunlaşmaq üzrədir.

Layihə üzrə 123,6 kilometrlik yolun 70,2 kilometrlik hissəsində torpaq yatağı inşa olunub. Yatağın tikintisi yekunlaşmış hissəsi boyu yol əsası inşa edilir, asfaltlanma işləri görülür. Bununla yanaşı, ortalama 48 kilometrlik hissədə hamarlayıcı lay, 38 kilometrlik hissədə əsasın alt layı, 36 kilometrlik hissədə əsasın üst layının tikintisi başa çatdırılıb. Yolun 35 kilometrlik ərazisində isə müəyyən hissələr üzrə asfalt-beton örtüyünün alt və üst layı döşənib və ərazi üzrə digər hissələrdə tikinti işlərinin aparılması davam edir. Onların əsas hissəsinin 2025-ci ilədək başa çatdırılması planlaşdırılır.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

AAYDA həmçinin bildirir ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planında agentlik tərəfindən 2022-2026-cı illər ərzində ümumi uzunluğu 2 min 264,5 kilometr olan 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma-partlama və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub.

Sürətlə tikilən bu yollar yurd həsrəti ilə yaşayan insanların mənzilbaşına rahat çatmasını təmin edəcək. Yolların tikintisinin isə sona çatmasına çox qalmayıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Sumqayıt Kimya Sənaye Parkının rezidentinin ixrac coğrafiyası genişlənir

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "ALCO" MMC tərəfindən bir sıra ölkələrə sürtkü yağlarının ixracına başlanılıb.**

"ALCO" MMC tərəfindən ilk dəfə olaraq Rumıniya, Çexiya, Latviya, Litva və İordaniyaya sürtkü yağları ixrac edilib. Bu ölkələrə il ərzində 10 min tondan çox məhsul göndərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkının rezidenti "ALCO" MMC 150 növdən çox sürtkü yağının istehsalını həyata keçirir. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, dünyanın 30-dan çox ölkəsinə "Made in Azerbaijan" brendi adı ilə ixrac edilir.

## BMT-nin Statistika Komissiyasının 54-cü sessiyası və rəsmi statistika üzrə Yüksək Səviyyəli Forum keçirilib

### Tədbirlərdə Azərbaycan nümayəndə heyəti də iştirak edib

**Nyu Yorkda BMT-nin Statistika Komissiyasının 54-cü sessiyası və rəsmi statistika üzrə Yüksək Səviyyəli Forum keçirilib. Tədbirlərdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov iştirak edib.**




Sessiyanın müzakirəsinə 19 sənəd çıxarılıb, 9 məlumat xarakterli məsələyə baxılıb. 4 gün davam edən sessiyada 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəliklə müəyyən olunmuş göstəricilər və həmin göstəricilər üzrə məlumatların toplanması, sosial-iqtisadi və demoqrafik statistika, ev təsərrüfatları üzrə sorğular, milli hesablar, sahibkarlıq, ticarət, maliyyə və qiymət statistikası, elm, texnika və innovasiya, ətraf mühit statistikası, regional səviyyədə statistikanın inkişafı, ekoloji-iqtisadi hesablar, rəsmi statistikanın əsas prinsipləri, beynəlxalq statistik təsnifatlar, statistik potensialın gücləndirilməsi, rəsmi statistikada keyfiyyətin təmin olunması sistemi, irihəcmli məlumatlar, qaçqınlar, məcburi köçkünlər və vətəndaşlığı olmayan şəxslər, cinayətkarlıq və hüquqpozmalarla bağlı statistika, rəsmi statistika ilə geoməkan məlumatlarının inteqrasiyası, Statistika Komissiyasının iş metodları və bir sıra digər mövzular üzrə müvafiq ekspert və işçi qrupları tərəfindən hazırlanmış məruzələrə dair qərarlar qəbul edilib. Eyni zamanda beynəlxalq müqayisələr proqramı, məlumatların yayılması və mübadiləsi üzrə vahid standartlar, BMT-nin Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının qərarlarının icrası məqsədilə görülmüş işlər üzrə hazırlanmış məlumat xarakterli məruzələr təqdim olunub. Rəsmi statistika üzrə Yüksək Səviyyəli Forumda isə ümumi daxili məhsula dair aktual məsələlərə baxılıb.

## Naxçıvan MR-də qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 2,3 dəfə artıb

**Naxçıvan MR Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2023-cü ilin yanvar-fevral aylarında muxtar respublikada 980 yeni vergi ödəyicisi qeydiyyata alınıb.**

Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 2,3 dəfə çox olub. Fevral ayında kommersiya qurumlarının 61 faizi elektron qaydada, 39 faizi isə kağız daşıyıcılarda edilmiş müraciətlər əsasında uçota alınıb.

## Təlimdə "ECOserve" proqramı çərçivəsində su resurslarına tələbatın təhlilinin modelləşdirilməsi müzakirə olunub

**"Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) proqramı çərçivəsində dayanıqlı kənd təsərrüfatı üçün su resurslarına tələbatın təhlilinin modelləşdirilməsi mövzusunda təlim keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə partnyorluq çərçivəsində icra olunan ECOserve proqramı çərçivəsində beynəlxalq ekspert tərəfindən keçirilən təlimdə Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsi, Aqrar Tədqiqatlar Mərkəzi, Azərbaycan Respublikasının Kosmik Agentliyi, Milli Aerokosmik Agentliyinin mütəxəssisləri iştirak ediblər.

Təlimdə peyk təsvirlərindən və Coğrafi İnformasiya Sistemləri (CİS) məlumatlarının təhlili zamanı proqramlaşdırma vasitələrindən istifadənin əhəmiyyəti barədə təqdimat keçirilib. Bildirilib ki, kənd təsərrüfatı məhsullarının istehsalında suvarma suyundan səmərəli istifadə mühüm əhəmiyyət daşıyır. Qlobal iqlim dəyişikliyi fonunda dünyanın əksər ölkələrində aqrar sahədə su resurslarının səmərəli idarə edilməsi vacibdir. Vurğulanıb ki, proqnozlaşdırılan su resurslarının azalması suvarmanın düzgün idarə edilməsini və suya tələbatın dəqiq hesablanmasını zəruri edir.

Qeyd olunub ki, ECOserve proqramı çərçivəsində aidiyyəti qurumlarla birlikdə kənd təsərrüfatı sektorunda sudan davamlı istifadə ilə bağlı məlumatlar toplanılıb, təhlillər aparılıb və suvarma suyuna tələbatın analizi məqsədilə yeni yanaşma hazırlanıb. Ölkə üzrə bitkilərin suya olan tələbatının qiymətləndirilməsi məsafədən zondlama ilə torpaq təsnifatı, bulud hesablamaları və CİS mühitində su balansı sxeminin tətbiqi vasitəsilə həyata keçirilib. Bu tədqiqat regionda tələb olunan dayanıqlı su siyasətinin həyata keçirilməsi vacib olan ərazidə su ehtiyatlarının suvarmada istifadəsi üzrə məlumat çatışmazlığını aradan qaldırmağa kömək edəcək.

Qeyd edək ki, "Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) proqramının əsas məqsədi təbii ehtiyatlardan davamlı və ekoloji cəhətdən təmiz istifadəni təşviq etməkdir. Proqram çərçivəsində ətraf mühitin və biomüxtəlifliyin mühafizəsi, suvarma suyuna olan tələbatın təhlili, kənd təsərrüfatında təbii ehtiyatlardan davamlı istifadə, hüquqi çərçivənin təkmilləşdirilməsi ilə bağlı təlimçilər və fermerlər üçün təlimlər keçirilib, ekskursiyalar təşkil olunub.

## Bakı-Qəbələ-Bakı sürət qatarına minik başlayır




**Mart ayının 18-dən "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı-Qəbələ-Bakı sürətli sərnişin qatarı fəaliyyətə başlayır.**

Sürət qatarının reysləri həftə sonları təşkil ediləcək. Bakı-Qəbələ və əks istiqamətdə qatarın yolda olma müddəti 3 saat 20 dəqiqə çəkəcək.

Xatırladaq ki, Bakı-Qəbələ dəmir yolunun açılışı 2021-ci il mayın 15-də olmuşdur.

# Su axdıqca təkcə durulmur

### İsrafçılıq bizi bu əvəzsiz nemətə həsrət qoya bilər

**Planetimizdə təbii fəlakətlərin sayı getdikcə artır. Dünyanın bir başında hər il insanlar güclü leysanlardan, sellərdən olmazın əziyyət çəkir, canlarını, mallarını itirirlər, digər başında isə çaylar quruyur, şəlalələr itir, göllər çəkilir.**

Bu gün bütün bəşəriyyət beləcə həlli müşkül ekoloji problemlərin qarşısında çətin durumdadır, nəyi necə edəcəyini sanki bilmir. Bildiyi nə isə varsa, o da özünə verdiyi suallardır: günahkar kimdir və problemin həllinin hansı yolları var?

2019-cu ildə Çilidə Laquna de Akuelo gölü qeyb olub. Kaliforniyada isə nəhəng Orovill gölü qurumaqdadır. Rusiyadakı Peşera gölü çəkilib, balıqları ilə birlikdə yerin altına gedib. Bu faciələrlə çaylar və şəlalələr də üzləşir. Cənubi Amerikanın Amazonka çayından sonra ikinci Parana çayında suyun səviyyəsi son 77 ildə ən aşağı səviyyəyə düşüb. Pakistanın dünyaca məşhur Hind çayının deltasının ölçüləri 5 dəfə kiçilib, nəticədə burada yaşayan insanlar yaşayış yerlərini tərk ediblər. Kanadanın 3 metr dərinliyi olan Slim çayı da 2013-cü ildə gölməçələrə çevrilib. Braziliyada eni 3 kilometr olan İquasa şəlaləsi isə 5 dəfə balacalaşıb. Üstəlik, Afrikada Viktoriya şəlaləsi də belə təhlükələrlə üz-üzə qalıb.

Avropada da qlobal istiləşmənin təsiri altında çaylar sürətlə quruyur. Dunay çayının Serbiya ərazisindən keçən hissəsində İkinci Dünya müharibəsindən qalma alman döyüş gəmisinin gövdəsi görünməyə başlamış, İspaniyada "Stounhenc" adlanan onlarca meqalitik daş abidələr üzə çıxmışdır. Son 30 ilin ən quraq dövrünü yaşayan bu ölkədə 1995-ci ildən üzü bəri ilk dəfə su anbarı və göllərdə suyun orta səviyyəsi 40 faizdən aşağı düşmüşdür.

Azərbaycandakı vəziyyət də ürəkaçan deyil. Xatırladaq ki, ölkəmizin çay şəbəkəsinə 8350-dən çox çay daxildir. Rəqəm böyük görünsə də, əksər çayların uzunluğu 10 kilometrdən azdır. Amma onların ümumi uzunluğu az qala ekvatorun uzunluğuna yaxın - 33665 kilometrə çatır. Bizim çaylar əsasən dağlarda formalaşaraq düzənlikdə ya Kür və Araz çaylarına qovuşur, ya da birbaşa Xəzərə tökülür. Çaylarımızın orta illik su axımı 31 kub kilometrə yaxındır ki, bunun da üçdəiki hissəsi qonşu ölkələrdə yaranır.



İqlim quraqlığının artması Böyük və Kiçik Qafqazda çay şəbəkəsinin sıxlığının düzənliklərə doğru azalmasına səbəb olur. 50-60 il əvvəl kəndimizin yanından axan dağ çayına gələn sellərin səsi camaatı vahiməyə salardı, yatmağa qoymazdı. Hamı mal-qarasını həyətə yığardı ki, sel aparmasın. Yayda isə alabalığını vedrə ilə yığardıq, hətta bizi həyətdən də bu qiymətli balıqla qovardılar. İndi bizim Quru çayın nə o vahiməli selləri qalıb, nə də yeri-göyü titrədən səsi. Heç onun Xəzərə gedib çatıb-çatmadığını da bilən yoxdur. Çünki çayın təkcə adı deyil, elə özü də quruyub.

Azərbaycan çaylarının fərqli cəhəti odur ki, onların bir qismi daim axan yeraltı sulardan, bir qismi cəmi bir neçə ay davam edən su mənbələrindən formalaşır. Yerdə qalan çaylar üçün isə ümumiyyətlə, yeraltı suların heç bir dəxli yoxdur. Suyu son onilliklərdə kəskin azalan, yayda isə tamamilə kəsilən çayların sayı-hesabı yoxdur. Məsələn, Samur çayının sululuğu iki dəfə aşağı enib, Taxtakörpü su anbarında içməli su ehtiyatı 50 milyon kubmetrə düşüb. Bakının su ilə bağlı təchizatında çətinliklər yaranıb və onların qarşısının alınması üçün "Azərsu" ASC Bakıətrafı qəsəbələrə içməli suyun verilməsi qrafikinin dəyişdirilməsi ilə bağlı qərar qəbul edib. İnsanlar bundan rahatsızdırlar. Çoxu nə baş verdiyini anlamır. Anlamır ki, problem Azərbaycanlıq deyil, dünyalıqdır. İordaniyanın paytaxtı Əmmanda yaşayan jurnalist Sudah Maruandan şəhərin əvvəllər və indi su ilə necə təchiz olunmasını soruşuram. Belə cavab verir: "Deyirsən ki, Bakıda gecə-gündüz su verilir. Sizin şəhərdə olmuşam və bunu öz gözlərimlə gördüyüm üçün dediklərinə inanıram. Mən uşaq olanda - 50 il əvvəl Əmman şəhərində də su problemi yox idi. İndisə həftədə bir dəfə su verilir. Kimin nəyi varsa, doldurub ehtiyatını yığır və çalışır ki, suyu elə işlətsin ki, həftənin axırınadək çatsın".

Həmkarımızın sözünə qüvvət: dünya əhalisinin dörddəbiri bu gün içməli su tapa bilmir, su qıtlığı kabus kimi hər yeri bürüyüb. Zarafat deyil, Çində 27 mindən artıq çayın yarısı yoxa çıxmışdır. Hətta Ukrayna kimi ərazisi kiçik olmayan ölkədə 10 min çay, sayı bilinməyən su quyuları qurumuşdur. Böyük Britaniyada da kiçik bulaqların dörddəbiri bu cür təhlükə ilə üzləşmişdir. Hindistanda misli görünməmiş su böhranı səbəbindən bağlarını suvarmaq üçün kredit götürən fermerlər arasında borcu qaytara bilmədiklərinə görə intihara əl atanlar da var.

Qayıdaq yenə ölkəmizə. Azərbaycanda torpaq fondunun 55,2 faizi kənd təsərrüfatına yararlıdır. Amma bu ərazilərin çoxu quraq zonaya aid olduğundan suvarmasız ötüşmək mümkün deyil. O üzdən dövlətin meliorativ tədbirlərə ayırdığı vəsait milyard manatlarla ölçülür.

Prezident İlham Əliyevin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda, 2020-ci il 27 iyul tarixli "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin, habelə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2020-ci il 15 aprel tarixli sərəncamı ilə qarşıya qoyulmuş vəzifələrin icrası nəticəsində bu gün ölkəmizdə su təminatında elə ciddi problem yaşanmır. Əlavə olaraq işğaldan azad edilmiş ərazilərdəki su mənbələri də bu sahədə vəziyyəti xeyli yaxşılaşdırmışdır.

Amma fakt faktlığında qalır - son 30 ildə Azərbaycanda çayların sululuğu azalır. Bu problem son 10 ildə özünü daha kəskin göstərir. 2020-ci ildə sudan səmərəli istifadənin tənzimlənməsi üçün yaradılan Su Komissiyası müəyyən işlər görsə də, problemin həll olunduğunu demək hələ tezdir. Bunun bir səbəbi də Azərbaycanda əhalinin çoxalması, sənayenin və aqrar sektorun inkişafı fonunda suya olan tələbatın artmasıdır. Biz hələ analoji vəziyyətlə az qala bütün dünya ölkələrinin qarşılaşdığını demirik. Dünya əhalisi 1800-cü ildə 1 milyard, cari ildə isə artıq 8,03 milyard olmuşdur. 2050-ci ildə bu rəqəmin 10 milyarda yaxınlaşacağı gözlənilir. Deməli, 1800-cü ildə insanların qidalanması və yaşaması üçün nə qədər su sərf edilmişsə, 2050-ci ildə həmin su məsrəfləri 10 dəfə artacaq.

Bütün bu boz proqnozlardan sonra sudan qənaətlə istifadə etmək çağırışından savayı əlimizdən heç nə gəlmir. Unutmayaq ki, su axdıqca (təbii ki, boş yerə) təkcə durulmur, həm də azalır.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Sənət dünyası

# Azərbaycan rəssamlarının əsərlərində qadın obrazı

**Təsviri sənətin yaşı tarixin özü qədər qədimdir. Ulu əcdadlarımız hisslərini, duyğularını qayalar üzərinə cızıb tarixin yaddaşına yazıblar. Min illər sonra gələn nəsillər xalqımızın tarixi keçmişini, məşğuliyyətini, incəsənətini daşlar üzərinə yazılmış bu rəsmlərdən oxuyub öyrəniblər. Daşlar, qayalar üzərinə çəkilmiş bu əsərlər milli kimliyimizi təsdiq edən sənət əsərləri olmaqla yanaşı, həm də millətimizin tarixi keçmişini təsdiq edən şəxsiyyət vəsiqəmiz oldu.**



Oqtay Sadıqzadə. Akademik Zərifə xanım Əliyevanın portreti



Toğrul Nərimanbəyov. "Ana" rəsmi

Ötüb keçən bu zamanda illər bir-birini təkcə vaxt olaraq əvəzləmirdi. İllər keçdiyimiz təkamül yolu idi. Meşəliklərdə, dağ zirvələrində məskən salmış insanlar təbiətin, otların, çiçəklərin, kainatın rənglərini elə təbiətin yaratığı gözəlliklərdən, bitkilərdən alıb boyalar düzəldib hisslərini, düşüncələrini, fantaziyalarını daha da təkmilləşdirməyə çalışırdılar. Boyalar ilməyə, naxışa da döndü. İlmələr kilim oldu, xalça oldu. Rənglər ipək oldu, atlas oldu. İnsan oğlu kamilləşdikcə könül dünyamız da zənginləşdi.

İllər keçdikcə zaman öz mövzusunu diktə edirdi. Tarixi proseslər bir-birini əvəzlədikcə mövzular daha da rəngarəngləşir, sürətlə bir-birini əvəzləyirdi. Ədəbiyyatımızda, musiqimizdə, təsviri incəsənətimizdə bütün mövzular əvəzlənsə də, bəzən "mövsümi" xarakter daşısa da, bir mövzu daim könül dünyamızın əsas xəttini təşkil edib: bir-birinə bağlı olan Ana və Vətən mövzusu. Həmişə vətənə ana demişik, ana müqəddəsliyinə səcdə etmişik.

Sənətkarların təsviri və tətbiqi sənət sahələrində müraciət etdikləri qadın obrazları ovqat və xarakter ifadəsinə görə çox rəngarəng olub. Bunu şərtləndirən başlıca səbəb onların bir-birindən çox fərqli zamanlarda və məkanlarda təsvir olunmalarıdır.



Tahir Salahov. "Abşeron qadınları"

Qadın gözəlliyini təsvir edərkən rəssamlarımız ilk olaraq şairlərimizin əsərlərindəki qadın obrazlarına müraciət ediblər. Nizaminin Leylisi, Şirini və Fitnəsi miniatürlərdə ustalıqla öz əksini tapıb.

İllər keçdikcə qadın gözəlliyi rəssamların əsərlərində rənglərin dili ilə, öz müxtəlifliyi ilə bədii ifadəsini tapıb. Fırça ustaları öz əsərlərində qadın gözəlliyinin fonunda milli geyimlərimizi, zinət əşyalarını sənətə gətiriblər. Ötən əsrin digər bir mövzusu da müxtəlif sahələrdə hünər göstərən qadın qəhrəmanlar idi.

Azərbaycanlı rəssam Toğrul Nərimanbəyovun 1966-cı ildə çəkdiyi üzüqırışlı, düşündürücü və düşüncəli "Ana" rəsmi yaddaşlara və sənət dünyasına öz möhürünü vurdu. Rəssam bu portret üçün öz dayəsini model seçib. Qriqoriy Anisimovun yazdıqlarına görə, "qadının baxışları harasa uzaq bir yerə zillənib, bəlkə də o öz çətin olan keçmişi haqqında düşünür. Bu qürurlu sima xeyirxah niyyətlə işıqlandırılıb. Anisimov qeyd edir ki, Nərimanbəyov bu əsərində abstrakt humanizmdən uzaq, real və romantik obrazı təsvir edir. Bu şəkildə həm də rəssamın mövqeyi aydın şəkildə ortaya çıxıb.

Xalq rəssamları Səttar Bəhlulzadə, Oqtay Sadıqzadə, Tahir Salahov, Ələkbər Rzaquliyev, Altay Hacıyev, Tokay Məmmədov, Fərhad Xəlilov, Maral Rəhmanzadə, Həyat Abdullayeva, Hafiz Zeynalov və başqalarının yaradıcılığında bu mövzu üstünlük təşkil edir.

Bu gün fırça ustalarının qadın qəhrəmanları əsgər anaları, şəhid xanımları, ata yolu gözləyən şəhid övladlarıdır. Erməni vəhşiliyinin qurbanı olmuş körpələrdir. Əsgərlərimiz səngərdə, fırça ustalarımız isə öz əsərləri ilə erməni faşizmini dünyaya təqdim edə biliblər. İnsanlığın faciəsi olan Xocalı qətliamı bədii qrafikanın dili ilə dünyaya təqdim olunur. Bu mövzuya həsr olunmuş əsərlərin dünyanın ən məşhur yerlərində sərgisi təşkil edilir. Erməni vandallarının Qarabağda törətdikləri vəhşiliklər rəssamlarımızın yaratdığı tablolarda dil açıb danışır.

Qarabağa yolu düşənlər yəqin ki, yolboyu rəssamların çəkdikləri rəngarəng qadın obrazlarını, oğlunu müharibəyə yola salan narahat baxışlı ana əsərlərini seyr edərək, bu əsərlərin təsirinə düşərək xeyli düşünüblər. Bu məqamda insanın ürəyindən yalnız bir istək keçir. Kaş ki, anaların gözündən övlad dərdi duyulmasın. Rəssamlarımız xoşbəxt, bəxtəvər qadın çöhrələrini, ürəyindən, gözündən məmnunluq süzülən anaların rəsmlərini yaratsınlar.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Rejissor, operator, ssenarist

# Kino sənətinin vurğunu

**Özünü bəxti gətirən adam hesab edirdi. Dünyaya gəldiyi zamanı da, məkanı da, sənət və ailə seçimini də özünə Tanrının lütfü sayırdı. Ancaq həyatın sərt üzünü də az görməmişdi. 1933-cü ildə Şəkidə dünyaya göz açan Rasim Ocaqovun uşaqlıq illəri çox ağır, ziddiyyətlərlə dolu dövrə təsadüf edib. Sovet hakimiyyətinin repressiyalarını, İkinci Dünya müharibəsinin gətirdiyi sıxıntıları, itkiləri, kasıblığı görə-görə böyüyüb. 1941-ci ildə Şəkidə orta məktəbin rus şöbəsinə gedib.**



## "Uzaq sahillərdə"dən başlayan sənət yolu

Uşaqlıqda geoloq olmaq keçib könlündən. Şəkinin dağlarına neft axtarmağa gələn mütəxəssisləri gördükdən sonra bu arzuya düşüb. O vaxtlar foto ilə də maraqlanıb, həvəslə şəkillər çəkib. Bir gün Şəkiyə sənədli film çəkməyə gələn Bakı kinostudiyasının çəkiliş qrupu Rasim Ocaqovun sənət istəyini dəyişib. Onda hələ 9-cu sinifdə oxuyurdu. Ata-anası onun arzusundan xəbər tutanda narazılıq ediblər. Amma onu fikrindən daşındıra bilməyiblər. Rasim Ocaqov 1951-ci ildə orta məktəbi bitirdikdən sonra SSRİ-nin paytaxtına - Moskva şəhərinə yollanıb. Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə daxil olub. 1956-cı ildə institutu bitirib, Bakıya gəlib. "Azərbaycanfilm" Kinostudiyasında işləməyə başlayıb. 1956-cı ildə "Uzaq sahillərdə" filminin ikinci operatoru olub. Çox keçməyib ki, onu bacarıqlı operator kimi tanıyıblar. 1957-ci ildə ilk dəfə operator kimi "Bir məhəlləli iki oğlan" filmini lentə alıb. 1958-ci ildə çəkilən "Onun böyük ürəyi" filmi isə quruluşçu rejissor kimi Rasim Ocaqovun kino sənətində ilk sərbəst işi olub. Həmin filmdə Rəna rolunun ifaçısı olan Sveta Cavadovaya vurulub. "Onun böyük ürəyi" Sveta Cavadovanın çəkildiyi ilk və sonuncu film olub. Aktrisa ilə evləndikdən sonra Rasim Ocaqov onu sənətdən uzaqlaşdırıb.

"Onun böyük ürəyi" filmindən sonra müxtəlif illərdə lentə aldığı "Əsl dost", "Bizim küçə", "Əmək və qızılgül", "Sən niyə susursan?", "Bir cənub şəhərində", "Abşeron ritmləri", "Ən vacib müsahibə", "Skripkanın sərgüzəşti", "Ömrün iki saatı" ekran əsərlərində Rasim Ocaqov Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrini yaradıb.

Onun arzusu kinorejissor olmaq idi. Kinostudiyanın rəhbərliyinə ssenarilər təqdim edirdi. Ancaq razılıq ala bilmirdi. Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram rejissorluğu şöbəsinə daxil olub, rejissor kimi ali təhsil alsa da, bir müddət kino çəkmək arzusunu həyata keçirə bilməyib...

Bir gün, nəhayət, rejissor kimi ilk təklifi alıb. Kinostudiyada çəkilən "Qatır Məmməd" filminin rejissoru Hüseyn Seyidzadə ilə rəhbərliyin arasında problem yaranıb. "Azərbaycanfilm"in rəhbəri Rasim Ocaqovu çağırıb. Moskvanın qəbul etmədiyi bu filmi yenidən çəkməyi ona həvalə edib. Rasim Ocaqov razılıq verib. Tarixi-qəhrəmanlıq janrında çəkilən filmin ssenarisini o, yenidən işləyib, bir sıra rolların ifaçılarını dəyişib. Qatır Məmməd obrazını isə istedadlı aktyor Şahmar Ələkbərova tapşırıb.

Rejissor kimi ilk filmi - "Gəncəbasarlı qisasçı" olub. 1974-cü il mayın 26-da filmə ictimai baxış keçirilib. Ekran əsəri haqqında yüksək fikirlər söylənilib.

İnsanın həyatı, psixologiyası, düşdüyü çətinliklər rejissoru maraqlandıran əsas cəhətlər idi. Bu mənada 1975-ci ildə çəkdiyi ikinci filmi - "Tütək səsi" Rasim Ocaqovun rejissor istəyinə uyğun olub. Bu fikri "Ad günü" barədə də deyə bilərik. Hər iki ekran əsəri böyük maraqla qarşılanıb. "Ad günü" filmi 1978-ci il yanvarın 26-da ilk dəfə ümumittifaq televiziyası ilə nümayiş olunub. Bu, "Azərbaycanfilm"in böyük uğuru sayılıb. "Ad günü" filmi 1978-ci ildə Azərbaycan Dövlət mükafatına layiq görülüb. 1979-cu ildə Bakıda VIII Ümumittifaq televiziya filmləri festivalında bu ekran əsərinə birinci mükafat, 1980-ci ildə isə Berlində ADR televiziyasının diplomu verilib.

## Onun ekran əsərlərinə maraq tükənmir

Bundan sonra çəkdiyi "İstintaq", "Bağlı qapı", "Park", "Özgə ömür", "Ölsəm... bağışla", "Qətldən yeddi gün sonra", "Təhminə", "Həm ziyarət, həm ticarət", "Otel otağı" filmlərində də Rasim Ocaqov çox ciddi, cəmiyyəti düşündürən mövzulara toxunub. Həmin ekran əsərlərində müasirlərinin həyatını, düşüncələrini, üzləşdikləri problemləri əks etdirib.

Rejissor R.Ocaqovun Azərbaycan kino sənətinə xidmətlərindən biri də tanınmayan aktyorların, aktrisaların istedadını üzə çıxarması olub. Bir filminə çəkdiyi bacarıqlı aktyoru sonra da yaddan çıxarmayıb. Digər ekran əsərlərində də onlara böyük, yaxud kiçik rollar verib. Rasim Ocaqovun filmlərində Azərbaycan aktyorları ilə yanaşı, SSRİ-də tanınmış aktyorlar da çəkiliblər. Həmin dövrdə Moskvada baxış zamanı buna xüsusi diqqət yetirilib.

Vurğunu olduğu kino sənəti sahəsində gördüyü işlərin dəyərini, çəkdiyi filmlərin unudulmayacağını bilirdi. Rasim Ocaqov özünü bəxti gətirən insan adlandırmaqda haqlı idi. Onun yaradıcılığı Azərbaycanda kino sənətinin inkişaf dövrünə təsadüf edib. Bir sıra maraqlı filmlər çəkməyə, rejissorluq istedadını göstərməyə fürsəti olub. 1990-cı illər baş verən hadisələr, SSRİ-nin dağılması, müstəqilliyinə nail olan müttəfiq respublikalarda iqtisadi problemlərin yaranması əksər sahələrə ağır təsir göstərib. "Azəbaycanfilm" kinostudiyasının da fəaliyyətində böyük çətinliklər meydana çıxıb. Filmlərin çəkilməməsi Rasim Ocaqova çox ağır təsir göstərib. Büruzə verməməyə çalışsa da, bunu özünə dərd edib.

Kinorejissor, kinooperator, ssenarist, Xalq artisti, Dövlət mükafatı laureatı Rasim Ocaqov 2006-cı il iyulun 11-də, yetmiş iki yaşında vəfat edib.

Zaman keçir, nəsillər bir-birini əvəz edir, tamaşaçılar dəyişir. Ancaq onun ekran əsərlərinə maraq tükənmir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Unudulmazlar

# Bitməyən həsrət



**Səsindəki kədər könlünün qubarıydı. Oxuduğu mahnılarla, muğamlarla qanadlanırdı. Rübabə Muradova 1933-cü il martın 22-də dünyaya göz açmışdı. İsti ata ocağında böyüyüb on üç yaşına çatmışdı. Nə dolanışıq dərdi, nə gün-güzəran qayğısı çəkirdi. Atası Mirzə Xəlilin həm dini, həm də tibb təhsili vardı. Özü də hörmət, izzət sahiblərindən biri idi.**

## *Əbədi ayrılığa doğru uzanan yol*

Mirzə Xəlil uşaqlarının təhsil almasını arzulayırdı. Ən böyük övladını - Rübabəni Ərdəbildə qızlar məktəbinə qoymuşdu. Qızının təhsil aldığı məktəbdə təşkil olunan konsertlərdə, tamaşalarda səhnəyə çıxmasına da etiraz etməmişdi.

Ömrünün o başında bəxti gətirmişdi Rübabənin. Onun atası yaşadığı ölkədə hökm sürən qayda-qanunlara boyun əyənlərdən deyildi. Mirzə Xəlil Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi inqilabi hərəkata qoşulmuşdu. Onlar azadlıq mücahidləri idilər. Ancaq sonunda vətəni azad görmək əvəzinə özləri evlərindən, yurdlarından dərbədər oldular.

Hərəkatın əksər fəalları kimi, Mirzə Xəlilin də başqa çarəsi qalmadı. Həyat yoldaşı Siddiqə ilə tələm-tələsik yığışdılar, uşaqlarını da götürüb Azərbaycanın şimalına üz tutdular. Tarixin 1946-cı ili idi...

Əvvəl Astarada məskunlaşdılar. Bir müddət keçdi, Salyana köçdülər. Vətəndən vətənə gəlsələr də, çətinlikləri çox oldu. Savadı Mirzə Xəlilin köməyinə çatdı, dini təhsilinə görə məscidin axundu oldu. Tibbi savadı ilə isə Salyanda həkimlik etdi. İllər sonra Əli Bayramlıya (indiki Şirvan rayonu) köçdülər.

Atası istəmirdi ki, onlar maddi çətinliklərə görə təhsildən geri qalsınlar. Rübabə Salyanda orta məktəbə getdi. Bir də gördülər ki, onun səsinin bənzərsizliyindən məktəbdə hamı xəbər tutub. Özü də musiqiyə, mahnı oxumağa çox həvəsliydi. Musiqi dərnəyinə yazıldı. Tədbirlərdə, tamaşalarda çıxış etməyə başladı. Xanəndə Qulu Əsgərovla da dərnəkdə tanış oldu.

## *Unudulmaz gün*

O gün on altı yaşlı Rübabə Muradova üçün sənət həyatının ən unudulmaz günlərindən biri oldu. Akademik Dram Teatrının aktyorları Salyana qastrola gəldilər. Rübabə adını çox eşitdiyi məşhur aktyor Ələsgər Ələkbərovu da onda gördü. "Vaqif" tamaşasının başlanmasına az qalmış söylədilər ki, Xuraman rolunun ifaçısı xəstə olduğu üçün səhnəyə çıxa bilməyəcək. Aktrisanı Rübabə Muradova əvəz etməli oldu.

İlk dəfə peşəkar, tanınmış, sevilən aktyorlarla eyni səhnəyə çıxırdı. Bu hissin qüruru, həyəcanı səhnə həyəcanını üstələdi. Məlahətli səsi ilə diqqətləri özünə cəlb etdi. Xuramanın özünü qayadan atması səhnəsində oxuduğu "Bayatı-Kürd"lə hər kəsi heyran qoydu. Tamaşadan sonra Ələsgər Ələkbərov ona Bakıya köçməyi məsləhət gördü: "Filarmoniyaya sənin kimi səsli müğənnilər lazımdır", - dedi.

Çox keçmədi ki, müəllimləri 1950-ci ildə Rübabə Muradovanı Bakıya gətirdilər.

Rübabə Muradova 1951-1955-ci illərdə Asəf Zeynallı adına Musiqi Məktəbinin muğam şöbəsində, Seyid Şuşinskinin sinfində təhsil aldı. Elə tələbə ikən Leyli roluna dəvət olundu və məşqlərə başladı. Rübabə Muradova ilk dəfə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsinə Leyli rolunun ifaçısı kimi çıxdı.

1954-cü ildə Opera və Balet Teatrına işə qəbul edildi. Ömrünün sonunadək həmin teatrda çalışdı. Əvvəl solist, sonra məşqçi-pedaqoq oldu. Opera və Balet Teatrının səhnəsində "Leyli və Məcnun"da Leyli, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da Xanəndə qız, "Şah İsmayıl"da Ərəbzəngi, "Aşıq Qərib"də Şahsənəm, "Gəlin qayası"nda Sənəm oldu. O həm də muğam, təsnif və xalq mahnıları oxuyur, tanındıqca sevilir, məşhurlaşırdı.

## *"Ömrüm keçdi, gələmmədim, gec oldu"*

İfasında heç zaman bitməyən bir qüssə, kədər vardı. Rübabə oxuyanda ağlamırdı. Səsindəki o qüssə, o kədər, o həsrət ağlayırdı. Şair Məhəmmədhüseyn Şəhriyar sanki bu məşhur misraları ona yazmışdı. Rübabə Muradova oxuyurdu:

Heydər Baba, yolum səndən kəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin necoldu,
Bilməz idim döngələr var, dönüm var,
İtkinlik var, ayrılıq var, ölüm var...

O, 1956-cı ildə Azərbaycanın Əməkdar artisti, 1971-ci ildə isə Xalq artisti adına layiq görüldü. Şöhrətinin zirvəsində idi. Ancaq qəlbində qövr edən intizara, həsrətə şöhrət də dərman ola bilmirdi. Gələndən-gedəndən Ərdəbildəki evlərini xəbər alırdı. Bir gün Astarada qastrol səfərində olanda sərhədin kənarından dayanıb ayaq basa bilmədiyi o yerlərə baxdı. Birdən elə nalə çəkdi ki... Hönkür-hönkür ağladı. Yan-yörəsindəki adamlar onu xeyli müddət sakitləşdirə bilmədilər.

Şöhrəti də, ad-sanı da vardı. Səsinin, ifasının vurğunu olanların sayı bilinmirdi. Ancaq çox zaman bunların heç biri təsəlli olmurdu ona. Üstəlik, paxıllığını çəkənlər, uğurlarına həsədlə baxanlar da Rübabə Muradovaya maneələr yaratmaq istəyirdilər. Haqqında Mərkəzi Komitəyə anonim məktublar yazırdılar. Amma o məktubları yoxlamağa gələnlər də Rübabə Muradova ilə dost olurdular.

Ancaq sevənləri çox olsa da, tale üzünə gülmədi. Çox gənc yaşında sevmədiyi biri ilə ailə qurdu. Həyat yoldaşı Xəlil onu çox qısqanır, söz-söhbətlər, mübahisələr yaradırdı. Bu evlilik uzun sürmədi. Rübabə Muradovanın ilk evliliyindən olan qızı Qəməri anası Siddiqə xanım böyütdü.

Rübabə bir neçə il sonra Tələt adlı ticarətçi ilə ailə qurdu. İkinci evliliyindən Şahnaz adlı qızı dünyaya gəldi. Amma yenə problemlər ortaya çıxdı. Gözəl həyat yoldaşının sənətdə ulduz kimi parlaması, gündən-günə pərəstişkarlarının çoxalması ilə Tələtin qısqanclığı da artdı. Ardı-arası kəsilməyən mübahisələrdən, yerli-yersiz söz-söhbətlərdən yorulsa da, Rübabə bir müddət dözməli oldu. Bir gün qısqanclıqdan gözü dönmüş Tələt gecə yatdığı yerdə onun uzun, qara saçlarını kəsdi. Bundan sonra Rübabə Muradova ikinci həyat yoldaşından da ayrıldı. Və bir daha ailə qurmadı.

Cazibədar qadın idi. Qürurlu, məğrur idi. Başqalarının nə danışdığı onun üçün maraqlı deyildi. Barəsində olanlardan çox olmayanları danışırdılar. Ancaq kimsənin onun sənətkarlığına şübhəli nəzərlə baxmağa, söz deməyə gücü yetməzdi.

Anasını itirdikdən sonra xəstəliyə düçar oldu. Qaraciyər serrozu xəstəliyinə tutuldu.

O, əlli yaşında, 1983-cü il avqustun 28-də vəfat etdi. Yasamal qəbiristanlığında dəfn edildi.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Xəbər

# Tofiq Kazımovun 100 illiyi dövlət səviyyəsində qeyd olunacaq

**Prezident İlham Əliyev martın 3-də Azərbaycanın görkəmli teatr rejissoru, Dövlət mükafatları laureatı, tanınmış pedaqoq, Xalq artisti Tofiq Kazımovun anadan olmasının 100 illiyi haqqında sərəncam imzalayıb.**



Sərəncama əsasən, Xalq artisti Tofiq Kazımovun 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanıb həyata keçirilməsi Mədəniyyət Nazirliyinə tapşırılıb.

Sərəncamda bildirilir ki, orijinal yaradıcılıq dəstxətinə malik fitri istedadlı rejissor kimi Tofiq Kazımov Azərbaycan teatrının repertuarını yüksək bədii-estetik meyarlı səhnə əsərləri ilə daha da zənginləşdirib. Sənətkar özünün teatr məktəbini qurmağa müvəffəq olub və həmin məktəb ölkə teatrını irəli apararaq ona yeni nailiyyətlər qazandırıb. Tofiq Kazımov milli və dünya dramaturji irsinin diqqətəlayiq nümunələrinə müasirlik kontekstində verdiyi mükəmməl quruluşlarla mədəniyyət salnaməmizə parlaq səhifələr yazıb. Onun hazırladığı və ictimai-mənəvi proseslərin axarında zamanın ritmini və insanların təfəkkür tərzini dolğun təcəssüm etdirən novator tamaşalar ideya-bədii bütövlüyü ilə seçilərək teatr ictimaiyyəti tərəfindən həmişə böyük maraqla qarşılanıb, respublikanın mədəni həyatında hadisəyə çevrilib. Sənət xəzinəmizin qızıl fondunda layiqli yer tutan bu səhnə əsərləri bir çox məşhur aktyorun formalaşmasında əhəmiyyətli rol oynayıb.

Dünya olduğu kimi

# Zamanın idarəçisi

**Zamanı hesablamaq üçün müxtəlif dövrlərdə fərqli təqvimlərdən istifadə olunub. Təqvimlərin əsasını göy cisimlərinin hərəkəti ilə əlaqədar olan dövri təbiət hadisələri təşkil edir. Təqvimlərin müxtəlif növləri var.**



Vaxtın hesablanmasında daha çox müxtəliflik ilin başlanğıcının hansı aydan hesablanmasında olur. Əksər ölkələrdə, o cümlədən Azərbaycanda tarixən il yazdan hesablanıb. Qədim misirlilər ilin başlanmasını Nilin daşması, şumerlər güclü küləklərin başlanması, romalılar paytaxt şəhərinin əsasının qoyulması, yunanlar Olimpiya oyunlarının keçirilməsi, bəzi ölkələr isə yeni hökmdarın hakimiyyətə gəlməsi ilə qeyd ediblər.

Ən qədim təqvim növü Ay təqvimi hesab olunur. Ayın Yer kürəsi ətrafındakı hərəkət dövriliyinə əsaslanan təqvim nö-



vü Mesopotamiyada III minillikdə tərtib edilsə də, miladdan öncə IX əsrdə aşşurlar, sonra isə yəhudilər bu təqvimdən istifadə ediblər. Daha sonra Şərq ölkələrində geniş yayılıb. Müsəlman ölkələrində geniş yayılmış bu təqvim "hicri tarix" adı ilə məşhurdur. Hicri-qəməri təqvimdən hazırda 20-dən çox ölkə istifadə edir.

Bu təqvimə görə, il 12 aydan, ilin uzunluğu isə 354 gündən ibarətdir. Bu təqvim Günəş təqvimindən 11 gecə-gündüz qısadır. Təqvimdə əsas vaxt vahidi olaraq Ayın iki ardıcıl eyni adlı fazası arasındakı müddət götürülür. Bu vaxt vahidi sinodik ay adlanır. Hicri təqvimində aylar tam günlərdən ibarət olmalıdır. Ona görə ilin 6 ayı 30 gün, 6 ayı isə 29 gün götürülür.

Ərəb Ay təqvimində isə 19 adi və 11 uzun il var. İlin başlanğıcı və ya yeni il məhərrəm ayının 1-i hesab edilir. Bu da həmişə təzə ayın çıxmasına uyğun gəlir. Ay təqvimində aylarla fəsillər arasında əlaqə yoxdur. Eyni ay müxtəlif illərdə fərqli fəsillərə düşür.

### *Roma təqvimləri*

İlk Günəş təqvimi sayılan Yuli Sezar təqviminə görə, hər 4 ildən 3-ü 365 gün (qısa il), 1-i 366 gün (uzun il) olurdu. Sezar təqvimində ilin orta uzunluğu 365 sutka 6 saat idi. Bu da bir ilin həqiqi uzunlu-



ğundan 11 dəqiqə 14 saniyə çox idi. Buna görə də XV əsrdə yeni ilin daxil olması astronomik yeni ildən 10 sutka geri qalırdı. Hazırda istifadə edilən ay adları da Yulian təqviminə görə adlandırılmışdı. Belə ki, yanvar (Yanus ayı) adını iki simalı Roma Allahı Yanusun şərəfinə alıb və "ilə keçid" mənasını verib. Fevral (təmizləyici ay) adı Yeraltı Allah olan Februusadan, mart isə (Mars ayı) qədim müharibə Allahı olan Marsdan götürülüb. Aprel ayının adının bir neçə mənası olduğu güman edilir. Latın feili olan aperire - açmaq sözündən götürüldüyü və İtaliyada yaz fəslinin bu ay başlandığı bildirilir, eyni zamanda apricus - günəş ilə qızdırılan, aphrilis - yunan ilahəsi Afroditanın şərəfinə (Aphros), həmçinin Roma Venerasına aid edilirdi. Məhz Veneranın ayı aprel seçilib.

May (Maya ilahəsinin ayı) məhsuldarlıq ilahəsi olan Bona Dea ( Yaxşı İlahə) ilə bir hesab edilən yunan ilahəsi Mayanın şərəfinə verilib. İyun (Yunonanın ayı) ayı fərziyyələrə görə, Yupiterin arvadı ilahə Yunonanın adından götürülüb. İyul (Yulinin ayı) təqvimi tərtib edən və bu ayda dünyaya gələn Yuli Sezarın şərəfinə adlandırılıb. Avqust (Avqust ayı) Oktavian Avqustun şərəfinə, xeyli sonra imperatorun hakimiyyəti dövründə onun üçün xoşbəxt sayılan ayda verilib.

Sentyabrdan başlayaraq aylar öz adlarını, qədim Roma təqvimində müvafiq ayı göstərən latın saylarından alıblar. Yulian təqvimindən fərqli olaraq bu adlar iki ay geri say mənasını verir. Sentyabr ayı müasir təqvimdə 9-cu ay olsa da, biz onu adlandırarkən "yeddinci" mənasını verən qədim latın sözündən istifadə edirik. Dekabr daxil olmaqla son dörd ayın adı Yulian təqvimindən götürüldüyü zaman sürüşdürülməyə yol verilib.

Növbəti təqvim islahatını Roma papası XIII Qriqori keçirir. Qriqoryan adlanan təqvim onun göstərişi ilə tərtib olunub və Yuli təqviminin təkmilləşdirilmiş variantı hesab olunur. 1582-ci ildən tətbiq olunsa da, ayrı-ayrı ölkələrdə bu təqvimə müxtəlif vaxtlarda keçid edilib. Bu təqvimə görə, hər ayın tarixi 10 gün sürüşdürülərək qısa və uzun illərin növbələşməsi saxlanılıb. İllərin nömrələrindən hansısa biri iki sıfırla bitirsə və yüzlüklərin sayı 4-ə bölünmürsə, o ili qısa il hesab edirdilər. Bu təqvim də 12 aydan ibarətdir və yeni il yanvarın 1-dən başlayır. Azərbaycanda da bu təqvimdən istifadə olunur.

### *İnanclara əsaslanan təqvim*

Astek təqvimi Mərkəzi Amerika xalqları tərəfindən qəbul edilmiş zaman ölçüsüdür. Bu təqvimdən ilk dəfə 3500 il bundan əvvəl olmeklər istifadə ediblər. Sonralar isə onu Meksikanın mərkəzi hissələ-



rində yaşayan xalqlar - mayyalılar, sapoteklər və asteklər qəbul ediblər. Onların təsəvvürlərinə görə, bu zaman ölçüsü ilahi mənşəyə, həmçinin insanlara xoşbəxtliyi, bədbəxtliyi və neytral həyatı bəxş etmək qüdrətinə malikdir.

Asteklər yalnız ilk iyirmi ədədi tanıyırdılar. Astek təqvimi hərəsi 20 gündən ibarət olan 18 ayı nəzərdə tuturdu. İl isə 365 gün olurdu. Burada 52 illik sikl tətbiq olunurdu. Hər sikl 13 illik 4 dövrəyə bölünürdü. Hər dövrənin sonunda 13 gün artırılırdı. Beləliklə, hər il üçün orta müddət 365,25 gün alınırdı. Astek təqvimi öz başlanğıcını eramızın 1090-cı ilindən götürüb.

Asteklər inanırdılar ki, hər 52 illik dövri sistemin sonunda dünya məhv olmaq təhlükəsi ilə üzləşir. Ona görə də onlar yeni "era"nı xüsusi təntənəli dini mərasim və ayinlərlə qarşılayırdılar.

İnanclara görə, yüz belə "era" öz növbəsində "Günəş" adlanan 5200 illik yeni eranı təşkil edir. Bu təqvimə görə beşinci Günəş erası asteklərdə səma, günəş və döyüşçülərin tanrısı olan Tonatiu tərəfindən idarə olunur.

Türk-monqol təqvimi meton dövrəsi üzrə tənzimlənən və qəməri-şəmsi sisteminə aid olan təqvimlərdəndir. Bu təqvimdə 12 adi, 7 uzun il var. Çin təqvimindəki kimi 12 il heyvan adları ilə adlandırılıb. Təqvimdə 7 uzun il 13 aya bölünüb. 12 adi il isə 12 aydan ibarət olub. Aylar "birinci ay", "ikinci ay", "təzə ay", "köhnə ay" və s. kimi adlandırılıb. Ay təzə ayın çıxması ilə başlanıb. Təqvim 1027-ci ildən hesablanır.

### *Xalq təqvimi*

Bundan başqa, el arasında xalq təqvimindən də istifadə olunur. Bu, müəyyən bir bölgəyə xas olan, ya da ümumi qəbul edilməyən təqvim növüdür. Xalq təqvimi rəsmi təqvimlərdən fərqli olaraq ili, ayları və günləri başqa bir şəkildə hissələrə ayırır və fərqli anlayışlarla adlandırır. Aylar müxtəlif təbii hadisələr, əkinçilik anlayışları ilə adlandırılır və bunların bəziləri hazırda rəsmi təqvimlərdə də istifadə olunur. Qeyd edək ki, Türkiyə təqvimində istifadə olunan bəzi ay adları xalq təqvimlərindən alınıb. Məsələn, ocaq (yanvar), əkim (oktyabr)...

Türk xalq təqvimi, hamısında ortaq bir anlayış olaraq gün dönümü əsasına görə yaradılır. Bugünkü təqvim anlayışının ək-




sinə ortalama doqquz gün geridən gələn ay başlanğıcları var. Yəni birinci ayın birinci günü 22 mart hesablanır.

Ayların adları isə müxtəlif türk xalqlarında fərqlənir. Onlar əkinçilik vasitələri, heyvandarlıq, iqlim dəyişiklikləri, hava hadisələrinə görə adlandırılır.

Türk mədəniyyətində ayların uzunluğu, mövsümlərin cəmi müddətləri nəzərə alınaraq hesablanır. Dünyanın orbitinə görə, bahar və yaz fəsilləri uzun, payız və qış isə daha qısadır. Mövsümlərin ən qısası qış, ən uzunu isə yazdır, təxminən 93-94 gün davam edir. Həmçinin türk xalqlarında həftənin günləri müxtəlif cür adlandırılıb, eyni zamanda həftənin hansı gündən başlaması da fərqli olub. Bununla yanaşı, türk xalqlarında zaman anlayışını bildirən sözlər də fərqli olub.

### *Ən geniş yayılmış təqvim növü*

Müasir dövrdə isə ən geniş yayılmış Günəş təqvimidir. Hazırda istifadə edilən təqvim ilə müasir vaxtın hesablanma sisteminə başlanması arasında 500 ildən artıq fərq olduğu bildirilir. Bu təqvimin vətəni Qədim Misir hesab olunur. Misirlilər Nil çayında suyun nə vaxt bol olacağını əvvəlcədən bilməli və həmin vaxta qədər kanalları təmizləməli, bəndləri möhkəmlətməli idilər. Əgər Nilin suyunun qarşısına bənd çəkib əkinlərə verməsəydilər, su axıb dənizə gedərdi və tarlalar susuz qalardı. Bu isə məhsuldarlığın aşağı düşməsinə səbəb olardı ki, nəticədə aclıqla müşahidə olunardı.

Misir kahinləri iyunun 22-də, ən qısa gecədən sonra günəş çıxmazdan əvvəl səmada parlaq Sirius ulduzu göründüyünü və həmin vaxt çayın daşdığını müəyyən edirlər.

Beləliklə, Siriusun ikinci dəfə çıxmasına qədərki müddəti hesablayırlar və görürlər ki, bu müddət 365 gün çəkir. Bu uzun



müddəti isə hər biri 30 gün olan on iki mərhələyə bölərək, qalan beş günü ilin axırına əlavə edərək, Günəş təqvimini yaradıblar.

Aparılan müşahidələr nəticəsində məlum olub ki, Sirius ulduzu gecikir, yəni təqvim üzrə il qurtarır, amma ulduz görünmür. Anlayırlar ki, vaxtı düzgün hesablamayıblar, 6 saat artıq götürmüşlər. Sonra hər dörd ildə bir sutka etdiyi müəyyənləşir.

Tez-tez eşitdiyimiz Çin təqvimi də inanclara əsaslanan təqvim növüdür. Çinlilər qədim zamanlardan bəri uşaqların cinsiyyətini müəyyən etmək üçün bu təqvimdən istifadə ediblər. İnanclara görə, uşağın cinsiyyəti qadından asılı idi. Beləliklə, qadının yaşı və hamilə qaldığı ay məlum olduqda uşağın cinsi haqda fərziyyələr irəli sürürdülər. Bundan başqa, müxtəlif xalqlar öz təqvimlərini yaradıb müəyyən müddət bundan istifadə ediblər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



Sağlıq olsun

# Fəslin mərəzi

**Fəsillər dəyişəndən sonra bəzən insanlarda yüksək hərarət, halsızlıq, boğaz ağrısı və öskürək müşahidə olunur. Mütəxəssislər bildirirlər ki, daha çox uşaqlarda müşahidə olunan bu problemlərə A qripi adlı virus səbəb olur.**



Türkiyənin Gülhanə Təhsil və Araşdırma Xəstəxanasının qulaq, burun, boğaz xəstəlikləri üzrə mütəxəssisi professor Ömər Karakoç bildirib ki, qrip qızdırma, baş ağrısı, burun axması, halsızlıq, öskürək şikayətləri ilə başladığı üçün bəzən qarın ağrısı, ürəkbulanma, qusma və ishal ilə də müşayiət olunur. O, bu hallar müşahidə olunarsa, mütləq həkimə müraciət etmək lazım olduğunu bildirib: "Qrip cəmiyyətdə hər yaş qrupunda izlənilir. Lakin sağlam yetkinlərdə xəstəlik adətən yüngül və orta şiddətdə irəliləyir. Lakin xroniki xəstələrdə, immunitet sistemi ilə bağlı xəstəlikləri olanlarda, yaşlılarda, hamilə qadınlarda və uşaqlarda ağır keçir. Bu, onların xəstəxanaya yerləşdirilməsinə, hətta həyati təhlükəsi olan sağlamlıq problemlərinə səbəb ola bilər".

Qripin insandan insana yaxın təmas, damcı yolu ilə keçdiyini deyən professor bu virusa daha çox oktyabr ayından mayın sonuna qədər rast gəlindiyini bildirib: "Qrip epidemiyası zamanı ən çox məktəb yaşlı uşaqlar təsirlənir. Orta hesabla sağlam uşaqların 40-50 faizi bu virusdan təsirlənir. 24 aydan kiçik uşaqların və 65 yaşdan yuxarı şəxslərin xəstəxanaya yerləşdirilmə nisbətləri daha yüksək olur".

### *Peyvənd vacibdir*

Mütəxəssis qripdən qorunmağın yollarını da göstərib: əllərinizi tez-tez yuyun, qapalı mühitlərdə uzun müddət qalmayın, evinizi və iş yerinizi tez-tez havalandırın, xəstə olduğunuz zaman izdihamlı mühitlərə getməyin, asqırarkən və öskürərkən ağzınızı salfetlə bağlayın, simptomlarınız varsa, maskadan istifadə edin.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hər il qış mövsümündən əvvəl qripə qarşı peyvənd edilməsini tövsiyə edir. Qurum qripdən qorunmaq üçün xroniki xəstəlikləri olanlara, 65 yaşdan yuxarı insanlara, 6 aylıqdan 5 yaşa qədər olan uşaqlara, hamilə qadınlara və tibb işçilərinə hər il qış mövsümünə qədər peyvənd etməyi tövsiyə edir. Professor Ö.Karakoç qeyd edir ki, 6 aylıq və daha yuxarı yaşda olan bütün şəxslər hər il peyvənd edilməlidir. 9 yaş və yuxarı yaşda olanlar ildə bir dəfə, 6 aydan 8 yaşa qədər olan uşaqlar isə iki dəfə peyvənd olunmalıdırlar. Xəstəlikdən qorunma ikinci dozadan sonra 1-2 həftə ərzində əldə edilir.

# Bitməyən öskürək

**Müşahidə olunur ki, bu il qrip əvvəllər olduğu kimi, 3-5 gün keçmir. Xəstəlik 2-3 həftəyə qədər, bəlkə də daha çox müddətə davam edə bilər. Eyni zamanda hazırda insanlar bitmək bilməyən öskürəkdən çox şikayətlənirlər.**



Sözügedən problemə türkiyəli professor-doktor Osman Müftüoğlu mediada yayımlanan yazısında toxunaraq bildirib ki, bu qışı təkcə COVID-19 ilə deyil, həm də qrip, soyuqdəymə və digər yuxarı tənəffüs yolları xəstəlikləri ilə keçiririk.

Məşhur həkim "müasir tibb hələ də bu sadə viruslar qarşısında kifayət qədər güclü deyil, hətta acizdir", - deyə etiraf edərək, sözügedən xəstəliklərdən əziyyət çəkənlərə ev şəraitində sadə üsullarla sağalmaq barədə bəzi məsləhətlər də verib.

**Sağalmaq üçün istirahət ilk şərtdir:**

İstirahət etməyi unutmayın. Soyuqdəymə, qrip və ya COVID-19-a yoluxmağınızın fərqi yoxdur, istirahət sizin sürətli sağalmanız üçün çox vacibdir. İstirahət etməsəniz, orqanizminiz bədəninizi işğal edən viruslarla mübarizə aparmaq üçün güc tapa bilməyəcək. Buna görə də mütləq istirahət edin, yaxşı yatmağa diqqət edin. Yaxşı istirahət və yuxu immunitet sisteminizin özünə gəlib bərpa olunmasına kömək edəcək.

**Qidalanmaya diqqət yetirin:**

Bol maye qəbul etmək, C vitamini ilə zəngin olan meyvə və tərəvəzlərə, yüksək protein gücü olan qidalara qida rasionunda əsas yer ayırmaq sağalmanın sadə, lakin vacib detallarıdır. Toyuq şorbası hər zaman olduğu kimi, yenə də ən çox sevilən "soyuqdəymə və qrip yeməyi"dir. Bu şorbanı hazırlayarkən ona yerkökü, noxud və ya mərcimək, bir neçə tikə zəncəfil kökü, bir az sarıkök, qara bibər, çoxlu soğan və sarımsaq, bir qədər qırmızı bibər əlavə edib limon suyu da qatmağı unutmayın.

**Əlamətlərə qarşı mübarizə:**

Qripin insanda yaratdığı halsızlıq, yorğunluq ağrılar və qızdırma ilə müşayiət olunur. Ağrınız varsa, parasetamol, aşağı dozada (200 mq.) ibuprofen və ya diklofenak kimi ağrıkəsicilərdən faydalana bilərsiniz. Bunlar qızdırma ilə mübarizənizi asanlaşdırır. Burun tıxanıqlığını və boğazdan axıntıları azaltmaq üçün antihistaminiklərdən (antiallergik dərmanlar) istifadə edə bilərsiniz.

**Faydalı qarqaralar:**

Limonlu ılıq su ilə qarqara boğaz ağrısını aradan qaldırır. Limonun tərkibində C vitamini və antioksidantlar var. Limon həmçinin tüpürcək ifrazını artıraraq faringeal selikli qişanın nəmli qalmasına kömək edir. Limona isti su, bir az bal və ya duz qarışdırmaq onun faydalı təsirini artırır.

Duzlu su ilə qarqara boğazda ağrı və yanmanı, eləcə də bəlğəmi aradan qaldırmaq üçün təsirli və ucuz vasitələrdən biridir. Duz məhlulu ağızda və boğazda şişkinliyi aradan qaldırmağa, həm də arzuolunmaz mikrobları məhv etməyə kömək edir. Proses sadədir: 1 çay qaşığı duzu bir stəkan isti suda həll edin. Bu məhlulla 30 saniyə qarqara edin və hər 1-2 saatdan bir onu təkrarlayın.

# Ballı və sirkəli qarışımlar

**Bal boğaz ağrısını müalicə etmək üçün digər təbii şəfavericilərlə qarışdırılır. Bu şəfalı arı məhsulu infeksiyaya qarşı mübarizə aparır və ağrıları kəsir.**

Balı ılıq su və alma sirkəsi ilə, yaxud soyuqdəymə zamanı istifadə olunan müxtəlif ədviyyatlarla (məsələn, darçın, zəncəfil) birləşdirə bilərsiniz. Diqqət yetirilməsi lazım olan ən vacib məqam odur ki, 1-2 yaşından kiçik uşaqlara bal verməməlisiniz. Balda rast gəlinən botulizm sporları körpələrə təsir edə bilər.



Eyni zamanda şəkərdən uzaq durmalı olan şəxslər də tərkibindəki şəkərin çox olması səbəbindən baldan istifadə etməməlidirlər.

Soyuqdəymə əlamətlərini azaltmaq üçün evdə hazırlanaraq istifadə edilən təbii vasitələrdən biri də alma sirkəsidir. Alma sirkəsinin aktiv maddəsi bakteriyalara qarşı antiseptik təsir göstərən sirkə turşusudur. Təbabətin atası kimi tanınan Hippokrat "oksimel" adlanan alma sirkəsi-bal qarışığından öskürək, faringit və soyuqdəymə xəstəliklərinin müalicəsində istifadə edib. 1 stəkan ılıq suyu bir xörək qaşığı alma sirkəsi və bir xörək qaşığı bal ilə qarışdırıb boğaz ağrısını aradan qaldırmaq üçün içmək və ya bu qarışımla qarqara etmək olar.

# Gülxətmi öskürəyin qənimidir



**Gülxətmi bitkisinin faydalı xüsusiyyətləri qədim zamanlardan bəri bəllidir. Bu bitkidən boğaz xəstəliklərinin müalicəsində geniş istifadə edilir.**

Həzm sistemi üçün çox faydalı olan gülxətmi eyni zamanda şiddətli öskürəyin qarşısını almaqda əvəzedilməzdir. O, ağciyərə yığılan bəlğəmin təmizlənməsini asanlaşdırır. Gülxətmidən istifadə etmək immunitet sistemini gücləndirir və gözlərin sağlamlığına müsbət təsir edir.

Bu bitkidən tənəffüs və həzm sistemi orqanlarının müalicəsi üçün də istifadə edilir. Onun kökünün dəmləməsi iltihab əleyhinə, öskürəyə qarşı güclü təsirə malikdir. Bu dəmləməni içmək badamcıqlardakı şişkinliyi, ağrını aradan qaldırır, öskürəyi yumşaldır və bəlğəmin azalmasına səbəb olur. Tərkibində olan yumşaldıcı selik maddələri, qastrit, kolit, mədə və onikibarmaq bağırsaq yarası xəstəlikləri zamanı çox faydalıdır. Xalq təbabətində gülxətmi kökünün dəmləməsindən kompreslərin qoyulmasında, yanıqlar zamanı yaranın yuyulmasında, boğaz qarqarasında geniş istifadə edilir.

Qrip və pnevmoniya xəstəliklərini quru gülxətmi çiçəklərindən hazırlanan dəmləmə ilə müalicə etmək mümkündür. Bunun üçün 200 ml qaynar suda dəmlənmiş 1 xörək qaşığı gülxətmi çiçəyini gündə 3 dəfə 50 ml olmaqla içmək lazımdır.

Qrip və angina zamanı gülxətmi kökünün qaynadılmış suya atılaraq boğazı qarqara etmək yaxşı təsir göstərir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Bronxit zamanı effektli vasitə



**Öskürək və bronxit zamanı ən tanınmış və effektli vasitələrdən biri soğanla balın qarışığı sayılır.**

Qarışığı hazırlamaq üçün 1 kq qırmızı soğan götürülür, xırda doğranılır, tənzifdə yaxşı sıxılır, eyni miqdarda təbii balla qarışdırılır. Bunu gündə 3 dəfə 1 xörək qaşığı olmaqla qəbul etmək olar. Uşaqlara 1 çay qaşığı vermək olar.

# Sumqayıtda şəhidlərin xatirəsi yad olunur

**Sumqaytın 4-cü mikrorayon ərazisində yerləşən 14 nömrəli tam orta məktəb Vətən müharibəsi qəhrəmanı şəhid Adil İbrahimlinin adını daşıyır.**



Bu günlər şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov şəhid ailələri, qazilərlə birlikdə həmin təhsil ocağında olub.

İştirakçılar öncə şəhidin büstü önünə tər çiçək dəstələri düzüblər. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vurmuş, onu təslim olmağa məcbur etmişdir. 30 ilə yaxın erməni vandallarının tapdağı altında qalmış Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edilmişdir. Sonra qonaqlar Adil İbrahimlinin məktəbdəki muzeyi ilə tanış olublar.

Adil Asəm oğlu İbrahimli 9 sentyabr 1992-ci ildə Sumqayıtda anadan olub. 2008-ci ildə Sumqayıt şəhəri 14 nömrəli tam orta məktəbdə 9-cu sinfi bitirib. Təhsilini davam etdirmək üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, 2011-ci ildə həmin liseyi bitirdikdən sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2015-ci ildə Ali Hərbi Məktəbi bitirib leytenant rütbəsini alan A.İbrahimli Təlim Tədris Mərkəzində zabit kimi təkmilləşdirmə kursu keçəndən sonra Azərbaycan Ordusunda hərbi xidmətə başlayıb. 2017-ci ildə XTQ-yə qəbul olub, orada fəaliyyət göstərdiyi zaman Türkiyədə "Komando" kursunu fərqlənmə ilə bitirib. 44 günlük Vətən müharibəsində o, Murovdağ, Suqovuşan, Füzuli, Hadrut, Xocavənd, Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib. Adil İbrahimli 2021-ci il noyabrın 7-də Şuşanın azad olunması zamanı şəhidlik zirvəsinə yüksəlib.

***Akif ƏLİYEV,* *"Azərbaycan"***




# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# Milli Azərbaycan Tarixi Muzeyində görüş keçirilib



**Məşhur fotojurnalist Rza Diqqəti Milli Azərbaycan Tarixi Muzeyində olub. Muzeyin rəhbərliyi ilə görüş zamanı R.Diqqəti ilə gələcək əməkdaşlıqla bağlı müzakirələr aparılıb. Bu barədə AZƏRTAC-a muzeydən məlumat verilib.**

Sonra Rza Diqqəti muzeyin eksponatları ilə tanış olub, Hacı Zeynalabdin Tağıyevin ev-muzeyini və "Xarıbülbülün vətəni - Şuşa" sərgisini ziyarət edib.

# Azərbaycanda "Google Chrome" internet brauzeri populyarlığına görə birinci olub



**Fevral ayında azərbaycanlı istifadəçilər arasında "Google Chrome" internet brauzeri populyarlığına görə birinci olub. AZƏRTAC "Global Stats" statistika mərkəzinə istinadən xəbər verir ki, onun yerli bazarda payı 78,18 faiz təşkil edib. Bu da yanvar ayı ilə müqayisədə 0,53 faiz azdır.**

"Safari" internet brauzerinin Azərbaycan bazarında payı 9,87 faiz səviyyəsində qalıb (0,75 faiz artım).

Hesabat dövründə "Samsung Internet" brauzerinin payı yanvar ayı ilə müqayisədə 0,1 faiz artaraq 4,78 faiz təşkil edib.

Fevral ayında "Opera" brauzerinin bazarda payı 0,71 faiz azalaraq 3,17 faiz təşkil edib.

Azərbaycan bazarında digər internet brauzerlərin ümumi payı 3,99 faiz təşkil edib.

# İranda məktəbli qızları nədən zəhərləyirlər?

## Artıq cinayəti törədənlərdən saxlanılanlar da var

**Son aylar İranın müxtəlif bölgələrində yüzlərlə məktəbli qız zəhərlənib. Zəhərlənmənin qurbanı olan bəzi şagirdlərin xəstəxanaya yerləşdirilməsi tələb olunur.**



Əvvəlcə İran hakimiyyəti bu hadisələr barədə susdur, amma sonradan bunu gizlətmək mümkün olmadı, çünki media otuz məktəbdə zəhərlənmələr barədə xəbərlər yaydı. Bütün hallarda zərərçəkən məktəbli qızlar oldu.

Bəzi jurnalistlər hətta bunun qızlar üçün məktəbləri bağlamaq və İranın qadın əhalisi üçün orta təhsili əlçatmaz etmək məqsədi daşıyan kampaniya olduğunu açıq şəkildə yazmağa cəsarət edirlər.

İran mediasının məlumatına görə, bu günə qədər ən azı 150 uşaq xəstəxanaya yerləşdirilib. İlk hadisə ötən ilin noyabrında Qum şəhərində baş verib. Oxşar hadisələr daha sonra Tehran, Borucerd, Ərdəbil və Sarı şəhərlərindəki məktəblərdə törədilib.

Fars agentliyinin xəbərinə əsasən, indiyədək zəhərlənmələrlə bağlı 4 nəfər həbs edilib.

Bu arada İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian deyib ki, İran məktəblərindəki silsilə zəhərlənmə hadisələri Qərbin müdaxiləsi ölkəyə qarşı hibrid müharibənin davamıdır.

Bundan əvvəl UNICEF iranlı məktəblilərin zəhərlənməsi ilə bağlı məlumatları izlədiyini və yardım göstərməyə hazır olduğunu bildirmişdi. BMT-nin Uşaq Fondu qeyd edib ki, belə hadisələr son onilliklərdə təhsil alan uşaqların, xüsusən də qızların sayının yüksək göstəricilərinə mənfi təsir göstərə bilər.

İranlı nazir vurğulayıb ki, ölkənin səlahiyyətli orqanları bu halları fəal və hərtərəfli şəkildə araşdırır.

İranın Səhiyyə Nazirliyi və İnformasiya (Kəşfiyyat) Nazirliyi 2022-ci il noyabrın sonundan qeydə alınmağa başlayan məktəblilərin kütləvi zəhərlənməsi halları ilə bağlı araşdırmalara başlayıb.

Ölkə parlamentinin təhsil, tədqiqat və texnologiya komissiyasının sədri Əlireza Monadi bildirib ki, məktəblərə tərkibində azot olan zəhərli birləşmə püskürülüb və bu, şagirdlərin zəhərlənməsinə səbəb olub. O, "Student News Network" qəzetinə verdiyi müsahibədə bu hadisələrdə əks-inqilabi qrupların əli ola biləcəyini qeyd edib, lakin heç bir təfərrüat verməyib.

***Rizvan CƏFƏROV,* *"Azərbaycan"***

# Bahar təravətli nəğmələri və rəqsləri ilə milli dəyərlərimizi yaşadan kollektiv

**Astara rayonunun Kakalos kənd sakini, uzun illər mədəniyyət sahəsində çalışan Fərbiyyə Şabanova əkin-biçininə gedən kəndlilərin dilində dolaşan əmək nəğmələrini və rəqsləri yaşatmaq üçün 1964-cü ildə bir qrup yaradır və bu qrupun adını "Əvəsor" adlandırır. "Əvəsor" talış dilində "Təzə il", "Novbahar" mənasını daşıyır.**





AZƏRTAC xəbər verir ki, ilk illərdə heyəti üç nəfərdən ibarət olan kollektiv elə həmin vaxtdan kənd-kənd oba-oba gəzərək şifahi xalq nümunələrini təbliğ edir.





Fəxri mədəniyyət işçisi, "Tərəqqi" medallı Fərbiyyə Şabanovanın təşəbbüsü ilə yaradılan "Əvəsor" folklor kollektivi hazırda 30 nəfəri özündə birləşdirir. Kollektiv üzvlərinin ən kiçiyinin 5, ən böyüyünün isə 40-dan artıq yaşı var.

"Əvəsor"un yaradıcısı və rəhbəri F.Şabanova deyir ki, repertuarlarının əsasını anasının sinədəftər bayatıları, nəğmələri təşkil edir. Hazırda kollektivin repertuarında "Talış toyu" kompozisiyası, "Biçində", "Qardaş, toyun mübarək", "Naz etmə" rəqsləri, "Laylay", "Elçilik", "Xınayaxdı" və sair folklor nümunələri var.

"Qrup yaranan vaxtda rəhmətlik anamdan öyrəndiyim talış və Azərbaycan xalq mahnılarını, bayatıları, əmək nəğmələrini və s. kollektivin repertuarına daxil etdim. Bundan sonra kollektiv ölkəmizin istənilən yerində təşkil edilən müxtəlif festivallarda iştirak etməyə başlayıb. Müstəqillik qazanandan sonra isə, 1993-1995-ci illərdə iki dəfə Mədəniyyət Nazirliyi tərəfindən qardaş Türkiyədə keçirilən festivala göndərildik. Orada uğurlu çıxışlarımıza görə bizə müxtəlif hədiyyələr və diplomlar təqdim edildi. Kollektivimizin üzvləri 1988-ci ildə Rumıniyada, 1991-ci ildə Dağıstanda keçirilən folklor festivallarında uğurlu çıxışları ilə tamaşaçıların rəğbətini qazanıblar. Altmış ildir ki, bu qrupu yaşadırıq. İndi də tədbirlərə, festivallara dəvətlər alırıq. Nə qədər ömrümüz var bu kollektivi yaşadacağıq", - deyə 84 yaşlı Fərbiyyə xanım bildirir.

Mədəniyyət Nazirliyinin 2000-ci il 12 iyul tarixli qərarına əsasən "Əvəsor" folklor kollektivinə "Xalq kollektivi" adı verilib.

2014-cü ildə 50 illiyini qeyd edən "Əvəsor" folklor xalq kollektivi təkcə rayonda deyil, respublikada keçirilən tədbirlərdə, beynəlxalq festivallarda da uğurla çıxış edir.

"Əvəsor" folklor xalq kollektivi nəzdində "Nəcib qızlar klubu" da fəaliyyət göstərir.

Qeyd edək ki, kollektiv haqqında sənədli film də çəkilib.

# Bakının və Abşeron yarımadasının birhəftəlik hava proqnozu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-6°, gündüz 10-15° isti olacaq.**




Martın 6-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Arabir güclənən cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 17-20° isti olacağı proqnozlaşdırılır.

Martın 7-də bəzi yerlərdə arabir yağış yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 8-10° isti olacağı bildirilir.

Martın 8-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən cənub küləyi əsəcək, axşam mülayimləşəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Martın 9-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 11-16° isti olacağı ehtimalı var.

Martın 10-da havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi ehtimal edilir. Səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-8°, gündüz 10-14° isti olacaq.

Martın 11-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 4-6°, gündüz 11-16° isti olacağı gözlənilir.

Martın 12-də hava şəraiti dəyişkən buludlu olacaq, arabir tutulacaq, əsasən yağmursuz keçəcək. Cənub küləyi əsəcək. Havanın temperaturunun gecə 5-7°, gündüz 13-18° isti olacağı proqnozlaşdırılır.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Yusif Bayramova atası

**VALEH BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5169
Sifariş 564
Qiymətі 40 qəpik